

## "Bu, həqiqətən tamamilə dəhşətli mənzərədir" - Mehriban Əliyeva

*"Bizim Moskvaya səfərimiz ərəfəsində Azərbaycan televiziyasında bir sənədli film göstərilirdi. Film bir ahıl qadın haqqında idi. Onun 79 yaşı var, Ağdama, işğaldan azad edilmiş Ağdama gəlib, öz evini axtarır. Qadın həqiqətən çox qoca idi, çətinliklə yeriyirdi və 30 dəqiqə ərzində o, praktiki olaraq göz yaşları töka-töka öz emosiyaları barədə, təbii ki, heç nə tapmaması barədə...*

Səh.2


# UNİKAL

№07 (2092) 25 fevral 2022-ci il

Qiyməti 40 qəpik

Qurucusu: Asəf Rzayev www.unikal.org unikal-1@mail.ru




## Hacıbala Abutalıbovun büdcəyə 10 milyon manatlıq ziyanı...

### Daha bir bahalı proyektin iflası... - Sabiq mer də dövlətin külli məbləğdə vəsaitini faktiki olaraq havaya sovurubmuş

*Bir müddət öncə sosial şəbəkələrdə parkomatlarla bağlı maraqlı görüntülər paylaşılmışdı. Bu görüntülərdə dövlət büdcəsi hesabına alınan parkomatların Bakının Günəşli qəsəbəsindəki "yarmarka" adlanan ərazidə baxımsız vəziyyətdə saxlanıldığı əks olunurdu. Qeyd edək ki, sözügedən aparatlar 2014-cü ildə Bakı Şəhər İcra Hakimiyyəti və Daxili İşlər Nazirliyinin Baş Dövlət Yol Polisi İdarəsinin müvəqqəti parklanma yerləri layihəsinin icrası üçün sifariş edilmişdi. Bu layihəyə əsasən, həmin il Fransanın "Parkeon S.A" (indiki adı "Flowbird") şirkəti xüsusi olaraq Azərbaycan üçün 1000 ədəd parkomat istehsal etmişdi.*

Səh.8



Səh.9

## Yeni müharibə ocağı: Rusiya Ukraynaya hücum etdi

## "Hər iki bəyannamə milli və dövlət maraqlarımıza tam cavab verir"



*Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri, deputat Ziyafət Əsgərov "Unikal" qəzetinə müsahibə verib. O, "Rusiya Federasiyası və Azərbaycan Respublikası arasında müttəfiqlik qarşılıqlı fəaliyyəti haqqında Bəyannamə" barədə fikirlərini bölüşüb.*

Səh.4

## "Biz müharibədən deyil, sülhdən danışmaq istəyirik" - Sahibə Qafarova



*Milli Məclisin sədri Sahibə Qafarova fevralın 24-də Avropa İttifaqının (Aİ) Azərbaycandakı nümayəndəliyinin rəhbəri Petr Mixalko ilə görüşüb. "Unikal" xəbər verir ki, qonağı salamlayan spiker Sahibə Qafarova deyib ki, Azərbaycanla Avropa İttifaqı arasında geniş gündəliyə malik, səmərəli və uğurlu əməkdaşlıq mövcuddur.*

Səh.2

## Səlim Müslümov üçün böyük çarəsizlik...



*Bu günlərdə Maliyyə Nazirliyinin Dövlət Maliyyə Nəzarəti Xidməti tərəfindən 2021-ci ildə aparılmış nəzarət tədbirlərinin nəticələri açıqlandı. Nəticələr arasında diqqətçəkən məqamlardan biri Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin (ƏƏSMN) Mərkəzi Aparatı və onun tabeliyində olan...*

Səh.5

# "Çoban estradadan, cazdan dəm vurur" - Brilliant Dadaşova



***Xalq artisti Brilliant Dadaşova yenə sosial şəbəkədə yazdığı sözlərlə gündəmə gəlib.***

Müğənni şeir formasında mətnlər yazaraq şou-biznesdə baş verənləri tənqid edib. Dadaşova ad çəkmədən sifarişlə onun fikirlərinin montajla kəsilməsindən danışıb:

”Böyükləri diqqətlə izləyərdim, səhvlərini dərd edib, qəlbimdə gizlədərdim. Köksümdə çox arzular bəsləyərdim. Kiçikdim, amma gəlinlik geyinmək istəyirdim. Çox vaxt gözümü yuman kimi elə bilirdim Xəzər dənizi hər dəqiqə gözləyir bizi. Xəyyallarımda hey üzürdüm mavi sularda. Yay fəsli bitəndə bağdan köməmək üçün qışı qovub qalmaq istəyirdim. O günlər harada, indi mən harada... İndi yürüyürəm soyuqda, qarda. Ən ümdə, dəyərli, ruhun qidası musiqi də indi qara bazarda. Bir zamanlar tütəkli çobanın o xoş sədası səs salıb dağda, gəzərdi sorağı yaşıl yaylaqda. Ağah edərdi bizi söhbətdən sazdan, həzz alardıq gözəl avazdan. İndi o da dəm vurur estrada, cazdan. Guya düzgün boğazdan istifadə etməyi öyrədir. Nənəm deyərdi, abırsızdan, abrını qoru. Montajçıya onun sponsoru hörmət edər, sənin fikirlərin kəsib, doğranar. Üstəlik utanmadan fikrini oğurlayarlar. Ürək yanğısıyla dediyin sözləri kəsib aləmə səni məntiqsiz göstərirlər. Hardan bilirdi görəsən nənəm başıma gələnləri? İndi düşünürəm nənmi haradan tapım, soruşum başıma daha nələr gələcək”.

# "Bunu etmək cinayətdir" - Nura Zaurun verilişini tənqid etdi

***”Bizimləsən” verlişində neçə vaxtdır bir mövzu uzana uzana gedir. Deməli, bir qadın doğub atıb başqa bir qadının üstünə. 19 il axtarmayıb. Həmin qadın da o uşağı öz uşağı kimi böyüdüb, uşaq da bilmir ki atılıb. İndi verlişdə deyirlər ki yox, uşaq bilməlidir, anasını tanımalıdır”.***



“Unikal” xəbər verir ki, bu sözləri müğənni Nura Suri sosial şəbəkədə yazıb. Sənətçi ”Bizimləsən” verilişində baş verən hadisəyə münasibət bildirib. O qeyd edib ki, bu cür hadisəni ictimailəşdirmək cinayətdir:

”İnsanlar, bu, nə münasibətdir? Cinayətdir bu məsələni açmaq ( Maddə 175- övladlığa götürmə sirrini yayma), insafsızlıqdır hətta. Belə hadisələri görüb heç kəs atılan uşaqları övladlığa götürməz, riskə getməz. Olmaz bu məsələni açmaq, uzatmaq. Uşaq böyütmək asandır? Onu böyüdən qadının əziyyətinə hörmət qoyun. Olmaz belə. Uşaqlarını atan insanların 2-3 ildən sonra səhvlərini anlamasını başa düşmək olar. 19 ildən sonra isə başa düşüləsi heç nə yoxdur”.

# "Məni yığan ərimdir" - Şəbnəm Tovuzlu



***Müğənni Şəbnəm Tovuzlu həyat yoldaşı barədə növbəti dəfə açıqlama verib.***

“Unikal” olay-a istinadən xəbər verir ki, sənətçi ”10-da görüşək” proqramında qonaq olan ifaçı əvvəllər bədxərc olduğunu, daha sonra ərinin sayəsində bu vərdişindən azad olduğunu bildirib:

”Uşaqlıqdan hər zaman sevgi görmüşəm. Məndə xainlik yoxdur. Son illərdə bir şeyin şahidi oldum. Deyirlər ki, kişinin arxasında yığcam bir qadın olmalıdır. Bu, bəzi kişilərə aiddir. Nə yaxşı ki, mənim arxamda güclü və tələbkar insan var. Məni yığan, nələrəsə sahib olmağımın səbəbkarı odur. Əvvəllər qazanırdım, pulun qədrini bilmirdim”.

# "Kənarda dayanmışam, vəkil həll edir" - Miri Yusif



***”Boş verib, başını aşağı salıb işinlə məşğul olmaq lazımdır. Heç birimizin ixtiyarı yoxdur kiməsə mız qoyaq”.***

Bu sözləri Xalq artisti Miri Yusif ”Şourum” proqramında deyib. Müğənni sosial şəbəkədə yazılan tənqidlərdən danışıb:

”Baxışların xətrinə hər gün bunu görürük. Boş versinlər. Hər kəsin öz gözəl meydançası var... Mənim də var, söz demək istəyəndə, çıxıb deyirəm. Heç kim mənim sözümü yoza bilməz. Bizim komandamızın vəkili var. Mən kənarda dayanmışam. Hansısa təhqir yazılanda vəkilə verirəm, dururam kənarda. Vəkil də nə lazımdır edir, nəticəni mənə verir. Dəfələrlə beləri cəzalandırılıb. Qətiyyən olmaz təhqir etmək”.

# Türkan Vəlizadə ərə getmək istəyir



***Müğənni Türkan Vəlizadə bu il ailə qurmaq niyyətindədir.***

“Unikal”ın məlumatına görə, ifaçı bu barədə ifaçının özü danışıb: “Məni istəyən insanlar çoxdur. Amma seçim etməliyəm. Sənətimə uyğun və ömürgün yoldaşı olsun. Seçimlər qarşısındayam. Ailə qurmaq istəyirəm”.

# Sevda da biznes qurdu

***”Giley eləməyi sevmirəm. Mənim üçün nə qədər çətin olsa da, onu dilə gətirməyi xoşlamıram. Bunu kiməsə ötürməyi sevmirəm: özümü yazıq kimi aparım. Vəziyyətdən özüm çıxıram”.***

Bu sözləri müğənni Sevda Əliqızı ”7 canlı” proqramında deyib. İfaçı şirniyyat biznesindən danışıb:.

”Bu biznes indi yox, əvvəldən varımdır. Əlimdən gəlir uşaq vaxtından. İstəyən insanlar, ailəm üçün edirdim. Deyirdilər, bir tort edərsiz? Mən də təmənnasız edib, verirdim. Sonra düşündüm ki, niyə bunu biznes kimi etməyim? Pandemiyada mənə çox köməklik etdi, indi də davam edirəm. Həm sənətimi, həm biznesimi çatdırıram”.





# Xələf Xələfov Polşaya getdi

***21-22 fevral 2022-ci il tarixində Azərbaycan ilə Polşa arasında diplomatik əlaqələrin yaradılmasının 30 illiyinə həsr edilmiş Dəyirmi Masa və Strateji dialoq üzrə məsləhətləşmələrdə iştirak məqsədi ilə AR xarici işlər nazirinin müavini Xələf Xələfov Polşa Respublikasına səfər edib.***

Bu barədə "Unikal"-a Azərbaycan Xarici İşlər Nazirliyindən məlumat verilib.

Səfər çərçivəsində Azərbaycan Respublikasının xarici işlər nazirinin müavini Xələf Xələfov və Polşa Respublikasının xarici işlər nazirinin müavini Marçin Pşıdaç Azərbaycan və Polşa arasında diplomatik əlaqələrin yaradılmasının 30 illiyinə həsr edilmiş, Polşanın Şərq Araşdırmalar Mərkəzi və Azərbaycanın Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin birgə təşkilatçılığı ilə keçirilən dəyirmi masada iştirak ediblər. Tədbirdə çıxış edən X.Xələfov Azərbaycan-Polşa münasibətlərinin 550 illik qədim tarixi, bu günü və perspektivlərindən, Azərbaycan dövlətçilik tarixində, inkişafında və şəhərsalmada tanınmış polyakların xidmətlərindən danışmış, ölkələrimiz arasında dostluq və qardaşlıq münasibətlərinin xüsusi rolunu qeyd edib. Tədbirdə Azərbaycan Respublikası ilə Polşa Respublikası arasında diplomatik əlaqələrin qurulmasının 30-cu ildönümünə həsr edilmiş poçt açıqcasının Polşa Poçtunun rəsmilərinin iştirakı ilə rəsmi təqdimatı baş tutub.

Tədbirin ardınca Polşa Respublikasının Xarici İşlər Nazirliyində nazir müavini X.Xələfov və Polşa Respublikasının xarici işlər nazirinin müavini M.Pşıdaçın rəhbərlik etdikləri nümayəndə heyəti arasında ölkələrimiz arasında strateji dialoq üzrə məsləhətləşmələr aparılıb. Məsləhətləşmələr zamanı, Azərbaycan Respublikası ilə Polşa Respublikası arasında diplomatik əlaqələrin qurulmasının 30-cu ildönümü münasibəti ilə Azərbaycan Respublikasının və Polşa Respublikasının xarici işlər nazirlərinin təbrik məktublarının mübadiləsi həyata keçirilib, ölkələrimiz arasında münasibətlərin bütün sahələrində, o cümlədən siyasi, mədəni, humanitar sahələrdə münasibətlərin durumundan razılıq ifadə edilib, iqtisadi əməkdaşlığın daha da genişləndirilməsi, beynəlxalq təşkilatlar daxilində əməkdaşlıq məsələləri və digər sahələrdə əməkdaşlığın inkişaf və perspektivləri müzakirə edilib.

Məsləhətləşmələrin davamı olaraq nazir müavini X.Xələfovun rəhbərlik etdiyi nümayəndə heyəti Polşa Respublikası Prezidentinin katibliyinin Dövlət Katibi, Beynəlxalq Siyasət Bürosunun rəhbəri Yakub Kumox ilə görüş keçirib. Görüşdə Azərbaycan və Polşa arasında diplomatik əlaqələrin qurulmasının 30-cu ildönümü münasibəti ilə Azərbaycan Respublikası və Polşa Respublikası Prezidentlərinin təbrik məktublarının mübadiləsi baş tutub, ölkələrimiz, xüsusilə ölkələrimizin rəhbərləri arasında səmimi dostluq münasibətlərindən məmnunluq ifadə edilib.

Nazir mavini X.Xələfovun, həmçinin Polşa Respublikası Senatının Vitse-marşaleki Boqdan Boruseviç və Polşa Respublikası Seyminin Vitse-marşaleki Rışard Terletski ilə, Polşa Respublikasının infrastruktur nazirinin müavini Andzej Bittel və Polşa Respublikası inkişaf və texnologiya nazirinin müavini, Azərbaycan Respublikası ilə Polşa Respublikası arasında İqtisadi Əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyanın polşalı həmsədri Qjeqoj Pexoviak ilə ayrı-ayrılıqda görüşləri keçirilib.

# Ukraynadan Bakıya xüsusi reyslər yoxdur - AZAL

***Hazırda Ukraynadan Bakıya gəlmək istəyənlər üçün xüsusi reysler yoxdur.***

Bu barədə AZAL-dan bildirilib.

Rəsmi məlumata görə, buna səbəb Ukraynadakı vəziyyətlə əlaqədar olaraq hava məkanı hüdudlarında mülki təyyarələrin uçuşlarının məhdudlaşdırılmasıdır.

# Hacıbala Abutalıbovun büdcəyə 10 milyon manatlıq ziyanı...

## Daha bir bahalı proyektin iflası... - Sabiq mer də dövlətin külli məbləğdə vəsaitini faktiki olaraq havaya sovurubmuş

***Bir müddət öncə sosial şəbəkələrdə parkomatlarla bağlı maraqlı görüntülər paylaşılmışdı. Bu görüntülərdə dövlət büdcəsi hesabına alınan parkomatların Bakının Günəşli qəsəbəsindəki "yarmarka" adlanan ərazidə baxımsız vəziyyətdə saxlanıldığı əks olunurdu.***

Qeyd edək ki, sözügedən aparatlar 2014-cü ildə Bakı Şəhər İcra Hakimiyyəti və Daxili İşlər Nazirliyinin Baş Dövlət Yol Polisi İdarəsinin müvəqqəti parklanma yerləri layihəsinin icrası üçün sifariş edilmişdi. Bu layihəyə əsasən, həmin il Fransanın "Parkeon S.A" (indiki adı "Flowbird") şirkəti xüsusi olaraq Azərbaycan üçün 1000 ədəd parkomat istehsal etmişdi.

Mətbuatda gedən xəbərlərə görə, həmin il ölkəyə gətirilən parkomatların 500 ədədi paytaxtın müxtəlif küçə və prospektlərində quraşdırılmışdı. Maraqlıdır ki, quraşdırılmayan parkomatların taleyi haqqında mətbuatda heç bir məlumata rast gəlmədik. Amma görüntülərdəki parkomatların istifadə edilmədiyi üçün onların elə o vaxtdan anbarlara toplanıldığı istisna edilmir.

Bu aparatların istifadə edilməməsinin səbəbi isə sözügedən layihənin uğursuz olması və onun parklanma sahəsindəki problemi həll edə bilməməsi oldu. Əslində, bu layihənin uğursuzluğu qısa müddət ərzində özünü biruzə vermişdi. Ona görə də 2016-cı ildən lazımsız əşya hesab olunan parkomatları yavaş-yavaş yaşıl jiletli "parkovşik"lər əvəz etməyə başladı.

"Azpolitika.info"nun yazdığına görə, parkomatların gözləntiləri doğrulda bilməməsinin əsas səbəblərindən biri onların istifadəsinin həmin dövrün qanunvericiliyi ilə ziddiyyət təşkil etməsi idi. Yəni bu aparatların vətəndaşlara cərimə yazmaq kimi bir funksiyası yox idi. Bunu o vaxt DYP əməkdaşlarının özləri də etiraf etmişdilər. Digər bir səbəb isə parkomatların şəhərdə lazımsız yer tutması və xidmət haqqının yüksək olması idi.

Həmin vaxt Bakının parklanma probleminin həlli üçün gətirilən amma hazırda istifadəyə yararsız hesab olunaraq, yığışdırılan parkomatlara böyük vəsaitlər sərf olunmuşdu. Bu aparatın bir ədədinin qiymətinin təxminən 8-9 min dollar aralığında olduğu bildirilir. Onların daşınma, quraşdırma və texniki xidmət xərclərini də nəzərə alsaq, söhbət ümumilikdə təxminən 10 milyon dollara yaxın bir xərcləmədən gedir.

Ekspertlərin araşdırmalarına görə, bu parkomatlardan hər il 2 milyon manata yaxın pul toplanılıb. Bu pulların Tarif Şurasının və Nazirlər Kabinetinin heç bir qərarı olmadan yığılaraq müxtəlif şəxslərin cibinə getməsi isə heç kimə sirr deyil...

Xatırladaq ki, parkomatların ölkəyə gətirilməsi Bakının sabiq meri Hacıbala Abutalıbovun dövrünə təsadüf edir. Onların quraşdırılması, texniki xidməti, pulların toplanması və s. işlərə isə Bakı şəhər İcra Hakimiyyətinin Xüsusi Təyinatlı Avtonəqliyyat İdarəsinin rəisi Həsən Abdullayevin rəhbərlik etdiyi bildirilir.

Lakin 2016-cı ildə ictimaiyyətin ciddi narazılığına səbəb olan bu aparatların qanunsuz olaraq quraşdırıldığı ortaya çıxdığından, H.Abutalıbov H.Abdullayevi vəzifəsindən uzaqlaşdırmalı olub. Onun işdən çıxarılmasına səbəb kimi paytaxtın bir neçə nöqtəsində onlarla qanunsuz parkomat quraşdırması və dayanacaq yaratması göstərilib.

Bəli, indi nə H.Abdullayev vəzifədədir, nə də onu idarə rəisi postuna gətirən və həmin postdan azad edən H.Abutalıbov... Lakin bir həqiqətdir ki,



sabiq merlə kadrının yarıtmaz fəaliyyəti ucbatından dövlətə 10 milyon manatlıq ziyan vurulub. Bəs həmin ziyanın hesabı soruşulubmu? Təəssüf ki, yox... Əks halda hər iki sabiq məmur əlaqədar qurumlar tərəfindən sorğu-sual edilirdi.

Düzdür, yerli KİV onu da yazır ki, hazırda baxımsız vəziyyətdə çürüyən bu parkomatların texniki göstəriciləri heç də pis hesab edilmir, onların istehsal tarixi köhnə olsa da, bu cihazlar müasir dövrün tələblərinə uyğun hazırlanıb. Yəni həmin qurğulardan faydalanmaq yenə də mümkündür. Ancaq bu sadə bir gerçəkliyi dəyişmir: Azərbaycanın iri məmurları vəzifədə olarkən büdcə pulları vasitəsilə çoxmilyonluq layihələrin icrası eşqinə düşür, dövlətin fantastik məbləğdə vəsaitlərini həmin layihələr üçün xərcləyir. Lakin sözügedən proyektlər çox keçmədən iflasa uğrayır. Məsələn, Ziya Məmmədovun büdcədən 100 milyon manat xərclədiyi "Nəqliyyatın İntellektual İdarəetmə Mərkəzi" layihəsi, ya da Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin indiyədək on milyonlarla manat xərcləməsinə baxmayaraq effektliyi şübhə altına düşən özünəməşğulluq proqramı kimi... Abutalıbovun parkomat layihəsi ilə bənzər olan bu cür qeyri-effektiv, iflasa uğramış proyektlərin sayı-hesabı yoxdur. Həmin layihələrdən dövlət büdcəsi fantastik pullar itirir, qazanan isə hansısa məmurlar olur.

Artıq bu acı təcrübəyə son qoymağın vaxtı çoxdan çatıb!

***Murad İbrahimov***

# Yeni müharibə ocağı: Rusiya Ukraynaya hücum etdi

***Fevralın 25-də səhər saatlarında Rusiya Ukraynaya hücum edib. Rusiya Prezidenti Vladimir Putin səhər saatlarında xalqa müraciətində bildirib ki, Rusiya Donbasda xüsusi hərbi əməliyyat keçirəcək: “Vəziyyət Rusiyadan qətiyyətli addımlar tələb edir”.***

Onun sözlərinə görə, mümkün qan tökülməsinə görə bütün məsuliyyəti tamamilə Ukrayna hökuməti daşıyacaq. Putin müraciətində bildirib ki, ədalət və həqiqət Rusiyanın tərəfindədir. O, ukraynalı hərbçiləri dərhal silahlarını yerə qoymağa və evlərinə getməyə çağırıb. Daha sonra Rusiya qoşunları Çerniqov, Sumı, Luqansk, Xarkov vilayətlərində dövlət sərhədini pozub. Bu barədə Ukrayna Dövlət Sərhəd Xidməti məlumat yayıb. Bildirilib ki, hücum nəticəsində Ukraynanın bir neçə hərbçisi yaralanıb. “Dövlət Sərhəd Xidmətinin hərbi qulluqçuları düşməni dayandırmaq üçün bütün tədbirləri görür”, - məlumatda vurğulanıb.

Kremlin sözçüsü Dmitri Peskov isə rəsmi məlumat verərək bildirib ki, Rusiya səhər saatlarında Ukrayna ərazisinə daxil olub əməliyyat keçirib. ”Əməliyyatların nə qədər davam edəcəyinə Putin qərar verəcək”, - deyə o, qeyd edib.

Rusiyanın Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Mariya Zaxarova isə deyib ki, Rusiya sona qədər danışıqlar təklif edirdi. “Son günə qədər danışıqları təklif edirdik. Kuratorlar danışıqlardan imtina edib Rusiyaya qarşı sanksiyalar qəbul etməyə başlayanda və Donbasda dinc əhalinin atəşə tutulması halları artdığı vaxt qərar (əməliyyat haqqında - red.) qəbul edildi”, - deyə o əlavə edib. Diplomat vurğulayıb ki, Rusiya açıq və dürüst şəkildə bu barədə bildirib: “ABŞ-a qulaq assaq, onda biz iki aydır ki, başqasının bayrağı altında Ukraynaya hücum edirik”.

Bəzi dövlətlərin nümayəndələri öz növbəsində Rusiyanı pisləyən bəyanatlar verərkən, ən çox diqqət çəkən sözlər BMT-nin baş katibindən gəlib. Belə ki, BMT-nin baş katibi Antonio Quterreş təcili olaraq Təhlükəsizlik Şurasının iclasına qatıldığını bildirib. Antonio Quterreş canlı yayımda ”Bizim görüşümüz zamanı Putin əməliyyat əmrini verdi. O, Ukrayna qoşunlarını geri çəkməyə çağırdı. Sülhə şans verin. Mən çağırışımı dəyişirəm. Prezident Putin, insanlıq naminə əsgərlərinizi geri çəkin. Xahiş edirəm. İnsanlıq naminə...Avropada əsrin ən böyük müharibəsini başlatma. Bu, hər ikisi üçün faciəvi olar”, - deyə o, ifadə edib.

Rusiya Silahlı Qüvvələrinin Ukraynaya qarşı başlatdığı hərbi əməliyyatı qəbuledilməz hesab edirik. Bu hücum Minsk razılaşmalarını pozmaqla yanaşı, beynəlxalq hüququn ciddi şəkildə pozulmasıdır, regionumuzun və bütün dünyanın təhlükəsizliyinə ciddi təhlükə yaradır. Bu barədə Türkiyə Xarici İşlər Nazirliyi məlumat yayıb.

Qeyd edilib ki, ölkələrin ərazi bütövlüyü və suverenliyinə hörmətlə yanaşmağın zəruri olduğunu düşünən Türkiyə sərhədlərin silah yardımı ilə dəyişdirilməsinə qarşıdır.

”Biz də Rusiya Federasiyasını bu ədalətsiz və qanunsuz hərəkətləri tez bir zamanda dayandırmağa çağırırıq. Ukraynanın siyasi birliyinə, suverenliyinə və ərazi bütövlüyünə dəstəyimiz gələcəkdə də davam edəcək”, - deyə məlumatda bildirilib.

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan isə toplantıdan sonra deyib ki, Türkiyənin Ukraynanın ərazi bütövlüyünü dəstəklədiyini telefon danışığımız zamanı ukraynalı həmkarı Volodimir Zelenskiyə deyib. Türkiyə Prezidenti bildirib ki, gərginliyin Minsk razılaşmaları çərçivəsində tənzimlənməsi arzumuzu bir daha təkrarlayırıq:

”Bunu dünən telefon danışığı zamanı Rusiya Prezidenti Vladimir Putinə də dedim. Hərbi müdaxilənin qəbuledilməz olduğunu və rədd etdiyimizi bir daha xatırlatmaq istəyirəm. Beynəlxalq hüquqa zidd kimi qiymətləndirdiyimiz bu addım regionun sabitliyinə vurulmuş bir zərbədir”.



Fransa prezidenti Emmanuel Makron Rusiyanın Ukraynaya hücumunu Avropa tarixində “dönüş nöqtəsi” adlandırıb. O, televiziya ilə xalqa müraciətində deyib ki, Fransa Ukraynanın yanında olacaq. Makron əlavə edib ki, Rusiyanın hərəkətləri qitə üçün “davamlı və dərin” nəticələrə səbəb olacaq.

İsrailin xarici işlər naziri Yair Lapid keçirdiyi mətbuat konfransında Rusiyanın Ukraynaya hərbi müdaxiləsini dəyərləndirib. O, Rusiyanın Ukraynaya hücumu dünya nizamına böyük bir hücum olduğunu vurğulayıb. ”Müharibələr münaqişələrin həlli üçün düzgün yol deyil. Biz bunu (hücumları) dayandırıb sülh yolu ilə həll üçün danışıqlar masasına qayıda bilərik. İsrailin həm Rusiya , həm də Ukrayna ilə çoxdan yaxşı və dərin münasibətləri var. Hər iki ölkədə yüz minlərlə İsrail vətəndaşı var. Yəhudilər var. Onları qorumaq bizim əsas prioritetimizdir”.

Məsələylə bağlı “Unikal”a açıqlama verən politoloq Məhəmməd Əsədullazadə bildirib ki, Qərblə Rusiyanın diplomatik danışıqları baş tutmaması müharibəni labüd edirdi. Onun fikrincə, Rusiya təhlükəsizlik zəmanəti deyil, nüfuz dairəsini müəyyənləşdirmək və dünyanın yeni nizamında fövqəl dövlət imicini bərpa etməkdir: “ABŞ Rusiyaya bu imkanı tanımadı. Vaşinqton Kremlin şərtlərini qəbul etsəydi də Rusiya Avropa və qonşularına qarşı aqressiv siyasət həyata keçirəcəkdi. Geopolitik qarşıdurma davam edir və Rusiyanın Ukraynaya qarşı müharibəsi Avropanın təhlükəsizlik arxitekturasını dağıtdı. Ukraynanı Qərb hərbi cəhətdən müdafiə etməyəcəksə, Polşa da Rusiyanın hədəfi olacaq. Bundan əlavə, Ukraynanın işğalı Rusiyaya imkan verəcək ki, keçmiş imperiyasını bərpa etsin. Şərqi Avropa, Mərkəzi Asiya və Cənubi Qafqaz Rusiyanın işğal siysəti ilə qarşılaşa bilər. Qərbin Rusiyaya 2014-cü ildə tutarlı müqaviməti olmadığı üçün Moskva hazırkı siyasətini davam etdirir. Qərb kollektiv olaraq Rusiyaya müqavimət göstərməsə, Kiyevdə Putin öz adamını hakimiyyətə gətirə bilər. Rusiya yeni dünya nizamında təsir zonasını formalaşdırır”.

M.Əsədullazadə onu da vurğulayıb ki, Qərb Rusiyaya qarşı praktik addımlar atmasa, Ukraynada hakimiyyətin devrilməsi baş tuta bilər: “Putin Ukraynada keçid hökuməti yarada bilər. V. Putin ABŞ-ın İraqa hücumu və Səddamın devrilməsi ssenarisini Ukraynada tətbiq edir. Qərb Ukraynanı Rusiyaya uduzacaqsa, Suriyada Rusiyaya qarşı cəbhə açıla bilər. Ukraynanın məğlubiyyəti Türkiyənin də geopolitik maraqlarına zərbədir. Görünən odur ki, Rusiya Qərbin fəaliyyətsizliyindən məharətlə istifadə edərək, diplomatik ultimatumunu hərbi müstəviyə keçirdi. Rusiya üçün bu müharibənin daxildə siyasi-iqtisadi böhrana yol açması mümkündür”.

Hərbi ekspert Ədalət Verdiyev isə bildirib ki, Rusiya öz sərhədlərində NATO qoşunlarını görmək istəmədiyinə dair zəmanəti çoxdan tələb edirdi. Onun sözlərinə görə, NATO isə bu zəmanəti verməməklə Ukraynanı Rusiya ilə qarşı-qarşıya gətirməkdən çəkinmədi: “Hazırda Ukraynaya verilən dəstək - məhdud sayda verilən silahlar Ukrayna ilə Rusiya arasında güc balansını dəyişməyə təsir etməyəcək qədərdir”.

O qeyd edib ki, Ukraynaya NATO-nun real dəstəyi olmasa çox böyük təhdidlə qarşılaşacaq: “Ukraynanın Rumıniya ilə sərhəd ərazilərinə atəş açılır. Demək olar ki, Luqansk istiqamətində Rusiya bir neçə kəndi də ələ keçirib. Ukraynanın sərhədləri boyunca bütün hərbi infrastruktura raket zərbələri endirilib. NATO bu işə qarışmasa, Ukrayna tam işğal oluna bilər, qarışsa Üçüncü Dünya müharibəsi başlaya bilər. Ukraynanı işğal edən Rusiya yarıyolda dayanmayacaq. Bu əməliyyat bitdikdən sonra Rusiya əsgərlərini NATO-nun sərhədlərində görə biləcəyik”.

Siyasi şərhçi Aqşin Kərimov isə bildirib ki, vəziyyətin dramatikləşməsi Avropa üçün təhdidləri praktiki müstəviyə çəkir, Ukraynanın Rusiya və Belarus tərəfindən mühasirəyə alınması Polşa, Rumıniya, Slovakiya, Macarıstan və Moldovaya, oradan isə sıçrayış edərək digər ölkələrə təhlükə gətirir. Onun fikrincə, Rusiya Kalininqradda da və ilhaq etdiyi Krımda da strateji silahlar yerləşdirib, əgər NATO proseslərə hərbi tədbirlərlə qarşılıq verəcəksə, o zaman Avropanın başı üzərində qara dumanlar qatılaşacaq: “Qısası, bu müharibənin təsirləri Ukraynadan da qat-qat uzaqlara yayılır və Rusiyanın da, NATO-nun da davranışlarında əlavə istiqamətlər yaradır. NATO-nun 1997-ci ildən bu yana sərhədlərini genişləndirməsi və Ukraynanı da öz çətiri altında görmək istəməsi Rusiyanı hiddətləndirir. Rusiya burnunun dibində NATO-nu görmək istəmədiyindən bütün cəbhələrdəki təzyiqi artırır və Ukraynanı tükəndirməyə çalışır. Tükəndirici tezislərə uyğun olan hərbi əməliyyatlar Avropada təhlükəsizlik nizamının təməllərini sarsıdır. Avropa üçün “qiyamət günü” yaxınlaşır və Avropa dövlətləri də özünümüdafiə reflekslərini işə salmaq zərurətini dərk edirlər. Bu isə tərəflər üçün barıt qoxulu ssenariləri prioritetlərə daşıyır. Avropanın Rusiya ilə soyuq müharibə tərzində qarşıdurma çağırışları ilə üz-üzə qalması bəşəri faciələr üçün də pəncərə açır”.

Azərbaycanın sabiq xarici işlər naziri Tofiq Zülfüqarov bildirib ki, hər şey siravi əsgərlərdən asılıdır: “İndi məsələ ondan ibarətdir ki, Ukrayna ordusu hansı formada müqavimət göstərəcək. Bu müqavimət uğurlu olacaq, yoxsa yox. İlkin mərhələlərdə artıq gələcəyin necə olacağı özünü daha aydın şəkildə göstərəcək”.

Politoloqun sözlərinə görə, artıq Rusiya tərəfindən Ukraynadakı hakimiyyəti devirmək planı bəyan olunub: “İndi hər şey Ukrayna xalqının iradəsindən asılıdır. Yəni, onlar öz liderlərinin ətrafında toplaşacaqlar, yoxsa yox. Bundan çox şey asılıdır. Siqnallar gəlir ki, Ukraynadakı bütün müxalifət partiyaları prezidentə dəstək veriblər”.

Sabiq nazir qeyd edib ki, hazırda çox mürəkkəb proseslər gedir: “Bu siyasi siqnallar ilk növbədə Ukrayna ordusunda izlənilir. İndi hər şey adi əsgərin vuruşub-vuruşmamasından asılıdır. Hələlik nəsə demək çətindir. Çünki Rusiya Prezidenti hakimiyyəti devirmək niyyətindədir. Eyni zamanda Rusiyanın niyyəti ölkəni işğal etməkdir. Yenə də, deyirəm, təbii ki, hər şey Ukrayna ordusunun necə müqavimət göstərməsindən asılıdır”.

***Z.Məmmədli***

# İlham Əliyev Dünya İqtisadi Forumunun Prezidentini qəbul edib



***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 24-də Dünya İqtisadi Forumunun Prezidenti Borge Brendenin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.***

"Unikal" xəbər verir ki, Dünya İqtisadi Forumunun Prezidenti Borge Brende ölkəmizə səfərləri zamanı Dünya İqtisadi Forumunun Dördüncü Sənaye İnqilabı Şəbəkəsinin Azərbaycan Mərkəzinin açılışında iştirak etmələrini məmnunluqla vurğuladı. O, ölkəmizin bütün sahələrdə əldə etdiyi iqtisadi uğurların əhəmiyyətini qeyd etdi, Azərbaycan iqtisadiyyatının regionda vacib amilə çevrilməsinin önəmini bildirdi.

Prezident İlham Əliyev Azərbaycanla Dünya İqtisadi Forumu arasında əməkdaşlığın yüksək səviyyədə həyata keçirilməsindən razılığını ifadə etdi. Dövlətimizin başçısı Dünya İqtisadi Forumu ilə ölkəmiz arasında əlaqələrin daha da inkişaf etdirilməsi üçün yaxşı imkanların olduğunu dedi.

Görüşdə əməkdaşlığımızın perspektivləri və qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

Borge Brende Dünya İqtisadi Forumunun növbəti toplantısında iştirak etmək üçün Forumun təsisçisi və icraçı sədri Klaus Şvabın dəvətini Prezident İlham Əliyevə çatdırdı.

# AZAL-a yeni vitse-prezident təyin olundu



***"Azərbaycan Hava Yolları" QSC-yə (AZAL) yeni vitse-prezident təyin olunub.***

AZAL-dan "Unikal"a verilən məlumata görə, bununla bağlı Prezident İlham Əliyev müvafiq sərəncam imzalayıb.

Bu vəzifəyə Samir Rzayevə təyin olunub. QSC-nin Prezidenti Cahangir Əsgərov yeni vitse-prezidenti kollektivə təqdim edib.

# Son sutka ərzində koronavirusa yoluxanların sayı açıqlandı




***Azərbaycanda koronavirus (COVID-19) infeksiyasına 1 755 yeni yoluxma faktı qeydə alınıb, 4 517 nəfər müalicə olunaraq sağalıb.***

Nazirlər Kabineti yanında Operativ Qərargahdan verilən məlumata görə, analiz nümunələri müsbət çıxan 23 nəfər vəfat edib.

İndiyədək ölkədə ümumilikdə 781 538 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib, onlardan 754 041 nəfər müalicə olunaraq sağalıb, 9 330 nəfər vəfat edib. 18 167 nəfər aktiv xəstə sayını təşkil edib.

Son sutka ərzində yeni yoluxma hallarının müəyyənləşdirilməsi ilə əlaqədar 10 291, bu günə qədər isə ümumilikdə 6 522 155 test icra olunub.

# "Bu, həqiqətən tamamilə dəhşətli mənzərədir" - Mehriban Əliyeva



***"Bizim Moskvaya səfərimiz ərəfəsində Azərbaycan televiziyasında bir sənədli film göstərilirdi. Film bir ahıl qadın haqqında idi. Onun 79 yaşı var, Ağdama, işğaldan azad edilmiş Ağdama gəlib, öz evini axtarır. Qadın həqiqətən çox qoca idi, çətinliklə yeriyirdi və 30 dəqiqə ərzində o, praktiki olaraq göz yaşları tökə-tökə öz emosiyaları barədə, təbii ki, heç nə tapmaması barədə danışmağa çalışırdı. O, hətta evinin xarabalığını da tapmadı, yəni o, heç olmasa həmin sahəni tapmağa çalışırdı. Bu, həqiqətən tamamilə dəhşətli mənzərədir".***

"Unikal" xəbər verir ki, bu fikirləri Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva fevralın 23-də TASS agentliyində Rusiyanın aparıcı kütləvi informasiya vasitələrinin rəhbərləri ilə görüşdə deyib.

"Düşünürəm, indi imkan yaranıb, mən sizin hamınızı dəvət etmək istəyirəm. Ona görə ki, cənab Prezident kitab barədə də danışdı, lakin bunları öz gözünüzlə görmək lazımdır. Nə üçün indi bu barədə danışıram, - o qadın öz sərgüzəştini danışdı və paralel olaraq müharibədən əvvəl, birinci müharibədən əvvəl çəkilmiş kadrlar qalıb. O vaxt o qadının ailəsində toy olub, - onlar bu toyu həyətdə necə qeyd ediblər, gənc gəlini qəbul ediblər və indiki, bugünkü kadrlar. Onun gözlərindən sevinc yaşı axır: nəhayət ki, bu torpağa qovuşub. O deyirdi: "Mən bu günü gördüm. Xoşbəxtəm ki, bu günə qədər yaşadım". Sonda həmin qadın bir ovuc torpağı götürüb öpür. İndi mən bunu ona görə danışıram ki, bunları çatdırmaq çətindir, yəqin bunu görmək, hiss etmək lazımdır ki, belə insanlar çoxdur. Birinci müharibə illərində bizdə 1 milyona yaxın qaçqın olub. Bu günü görmək arzusu ilə yaşayanların çoxu dünyasını dəyişib, sağ qalanlar üçün indi, əlbəttə, xoşbəxt günlərdir. Təbii ki, bu insanların ailələri var, tanışları var. Belə vəziyyətlər yarananda, həqiqətən Prezidentin vurğuladığı kimi, ilk növbədə, onları qorumaq lazımdır. Ona görə ki, çox vaxt biz böyük problemlərdən söz açanda ümumi şəkildə danışırıq və ayrıca insanı görmürük, - bu, bəlkə də təbiidir. Hər bir problemin arxasında yəqin ki, konkret insan dayanır, onun həyat tarixçəsi, emosiyaları dayanır və təəssüf ki, insanlar da, onların emosional fonu da fərqlidir. Məhz bu səbəbdən dövlət, - indiki halda Prezident Azərbaycan dövlətinin adından danışır, - Azərbaycana gələn hər kəsi qorumalıdır. Lakin dövlət insanların hansı emosiyalarla yaşadığını da bilir. Mən məktəbdə oxuyanda bizim sinif çoxmillətli idi - ermənilər, ruslar, yəhudilər, azərbaycanlılar... Hətta deyə bilmərəm ki, mənim sinfimdə azərbaycanlılar əksəriyyət təşkil edirdi, - yadınızdadırsa o vaxt bir sinifdə 45 şagird olurdu. Biz hamımız dostluq edirdik, əlbir idik, heç bir pislik gözləmirdik. Hesab edirəm ki, bu məziyyət Azərbaycan xalqının ən yaxşı cəhətlərindən biridir və o, yox ola bilməz. Bu gün belə olması tamamilə izah edilə biləndir və təəssüf ki, bunun baş verməsinin tarixi səbəbləri var".

# "Biz müharibədən deyil, sülhdən danışmaq istəyirik" - Sahibə Qafarova

***Milli Məclisin sədri Sahibə Qafarova fevralın 24-də Avropa İttifaqının (Aİ) Azərbaycandakı nümayəndəliyinin rəhbəri Petr Mixalko ilə görüşüb.***

"Unikal" xəbər verir ki, qonağı salamlayan spiker Sahibə Qafarova deyib ki, Azərbaycanla Avropa İttifaqı arasında geniş gündəliyə malik, səmərəli və uğurlu əməkdaşlıq mövcuddur. O, Azərbaycanın Avropa İttifaqı ilə bərabərhüquqlu tərəfdaşlığa əsaslanan münasibətləri inkişaf etdirməkdə maraqlı olduğunu, qurumla əməkdaşlığın Azərbaycanın xarici siyasətinin prioritet istiqamətlərindən birini təşkil etdiyini diqqətə çatdırıb.



Spiker Sahibə Qafarova ölkəmizlə bu qurum arasında yeni tərəfdaşlıq sazişi üzrə danışıqların son mərhələdə olduğunu, Azərbaycanın Avropa İttifaqının 9 üzvü ilə strateji tərəfdaşlıq sənədləri imzaladığını diqqətə çatdırıb.

İkitərəfli münasibətlərdə parlament çərçivəsi haqqında məlumat verən Milli Məclisin sədri deyib ki, azərbaycanlı deputatlar həm Parlament Əməkdaşlıq Komitəsi, həm də Avronest Parlament Assambleyası çərçivəsində əməkdaşlığın inkişafına töhfə verirlər.

Görüşdə 44 günlük Vətən Müharibəsində Azərbaycanın əldə etdiyi qələbə və hazırda regionda yeni yaranmış vəziyyət barədə də danışan Spiker Sahibə Qafarova qeyd edib ki, Azərbaycan bu qələbə nəticəsində Ermənistanın 30 illik işğalına son qoyub və ərazi bütövlüyünü bərpa edib. Azərbaycan özü BMT Təhlükəsizlik Şurasının dörd qətnaməsini, beynəlxalq hüququn norma və prinsiplərini yerinə yetirib. Bu gün Ermənistanla Azərbaycan arasında münaqişə artıq mövcud deyil. Biz müharibədən deyil, sülh və gələcək haqqında danışmaq istəyirik.

Səmimi qəbul üçün minnətdarlığını bildirən Avropa İttifaqının Azərbaycandakı nümayəndəliyinin rəhbəri Petr Mixalko Azərbaycanın Aİ üçün çox vacib tərəfdaş olduğunu diqqətə çatdırıb. O, ölkəmizlə qurum arasında güclü tərəfdaşlıq əlaqələrinin mövcud olduğunu bildirərək, bu münasibətlərin çox geniş gündəliyə malik olduğunu, iqtisadiyyat, texnologiyalar və innovasiyalar, ticarət, enerji və digər sahələri əhatə etdiyini söyləyib.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında da fikir mübadiləsi aparılıb.

# "Rusiya Çernobıl AES-i ələ keçirməyə çalışır" - Zelenskidən həyəcan SİQNALI



***Rusiya hərbi qüvvələri Çernobıl Atom Elektrik Stansiyasını (AES) ələ keçirməyə çalışır.***

"Unikal" xəbər verir ki, bu barədə Ukrayna Prezidenti Vladimir Zelenski "Twitter"də bildirib.

"Rusiya işğalçı qüvvələri Çernobıl AES-i ələ keçirməyə çalışır. Müdafiəçilərimiz 1986-cı il faciəsinin bir daha təkrarlanmaması üçün canlarını verirlər. Bu barədə İsveç Baş nazirinə məlumat vermişəm. Bu, bütün Avropaya qarşı müharibə elanıdır", - Zelenski qeyd edib.

## ELAN

**Dövlət Torpaq və Xəritə komitəsinin Gədəbəy rayon şöbəsi tərəfindən Gərgər kəndində Rzayev İslam Səməd oğluna verilmiş həyətyanı məqsəd üçün A №097403-li Torpaq sahəsinin planı və ölçü sənədi itdiyi üçün etibarsız sayılır.**

Baş redaktor:
*Zaur Əhməd*

Turanbank" ASC Binəqədi filialı.
H/h: AZ70TURA40050054644700110944
M/H: AZ26NABZ01350100000000027944
Kodu: 504692
Şəhadətnamə № 3150
Ünvan: 8 mk-r. Ə.Naxcıvani 5N
Tel./Fax:(012) 561-65-53

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnmiş və "Futbol+" servis mətbəəsində çap olunmuşdur

Sifariş 252.
Tiraj:2500

# İlham Əliyevdən Simonyanın təxribatçı sualına möhtəşəm cavab

***Prezident İlham Əliyevin fevralın 23-də TASS agentliyində Rusiyanın aparıcı kütləvi informasiya vasitələrinin rəhbərləri ilə görüşündə erməni əsilli jurnalist marqarita Simonyanla maraqlı dialoqu baş verib.***

"Unikal" sözügedən məqamı təqdim edir:

Marqarita Simonyan, RT telekanalının və "Rossiya seqodnya" Beynəlxalq İnformasiya Agentliyinin baş redaktoru: İlham Heydər oğlu, biz yeni-yeni sanksiyaların, o cümlədən personal sanksiyaların müzakirə olunduğu prosesdəyik, burada iştirak edənlərin bəzilərinin, məsələn Dmitrinin Avropaya girişi artıq qadağan edilib, mənim kimi bəzilərinə isə yəqin ki, bu gün qadağan ediləcək. Biz insanların nəyi isə etdiklərinə və ya etmədiklərinə görə, yaxud Dmitri ilə mənim kimi nəyi isə dediyimizə və ya demədiyimizə görə harayasa getməyin qadağan edilməsinə dair çox nümunə gətirə bilərik. Biz, həmçinin vətəndaşlıq bu, zaldakı adamların ürəyincə olmasa da, onlar məni uzun müddət alqışladılar.

**Marqarita Simonyan:** Mən bu əhvalatı bilirəm.

**Prezident İlham Əliyev:** Bax, görürsünüz. Deməli, sizin dediklərinizdə hər halda müəyyən qərəzlilik var. Ermənistan nümayəndələri, hətta etnik ermənilər Azərbaycana müxtəlif tədbirlərə gələndə də eyni vəziyyət baş verir. Bir neçə il bundan əvvəl Katalikos Qareginin səfəri olub, mən öz iş kabinetimdə onunla görüşmüşəm. O, Bakının mərkəzində erməni kilsəsində oldu və bu kilsədə erməni dilində 5 mindən çox kitabı qoruyub saxlamağımıza təəccübləndi, o, özü buna şahiddir. Mən belə nümunələri çox misal gətirə bilərəm - erməni soylu deputatlar, ictimai xadimlər, digər ölkələrin vətəndaşları. Bizdə qadağa yoxdur. Narahatlıq var, daha doğrusu, vardı ki, belə hallar xaotik şəkildə baş verəndə hansısa insidentlərin ola biləcəyi barədə müəyyən risk var. Çünki Ermənistan rəhbərliyi sülh müqaviləsi üzərində işləməyə başlamaq barədə bizim ideyaları qəbul etsə, belə səfərlər müharibədən əvvəl olduğu kimi adi hal ala bilər. İrəvandan fərqli olaraq, Bakı həmişə çoxmillətli şəhər olub. Monoetnik dövlət olan, praktiki surətdə bütün milli azlıqların, ilk növbədə, azərbaycanlıların deportasiya edildiyi, qovulduğu Ermənistandan fərqli olaraq, Azərbaycan indiyə qədər çoxmillətli dövlətdir. Buna görə də Azərbaycanda multikulturalizm ruhu praktiki olaraq hər yerdə görünür və üstəlik, Azərbaycanda erməni millətindən olan minlərlə Azərbaycan vətəndaşı yaşayır. Onların sayı deyilən 30 mindən azdır. Yəqin ki, 30 min 10-15 il bundan əvvəl olub, bununla belə onlar var, yaşayırlar və normal yaşayırlar, heç kəs onlara heç bir iddia irəli sürmür. Buna görə də sizin sualınıza cavab vermək imkanından istifadə edərək sizi Azərbaycana gəlməyə dəvət etmək istərdim. Siz görərdiniz ki, heç bir məhdudiyyət yoxdur.



əsasında ölkəyə girişə qadağa qoyulmasına dair çox nümunə göstərə bilərik, çünki müxtəlif ölkələr arasında münasibətlər müxtəlif olur. Lakin dünyada etnik əlamətinə görə ölkəyə girişə qadağa qoyulmasına aid nümunələr demək olar ki, yoxdur. Biz hamımız bilirik ki, ermənilərin Azərbaycana girişinə qadağa qoyulub. Adətən bu, təhlükəsizlik mülahizələri ilə izah olunur. Beləliklə Azərbaycan xalqı qəribə də olsa, pis şəkildə təqdim olunur. Mənim üçün inanmaq çətindir və mən inanmıram ki, insanlar Azərbaycanda canlı etnik erməni görərsə onun üstünə atılar və onu tikə-tikə edərlər, hər halda orta əsrlərdə yaşamırıq. Siz bu məsələyə belə sivil, mədəni münasibət nümunəsi göstərmək və bu cəfəng status-kvonu, sadəcə, ləğv etmək istəməzdinizmi?

**Prezident İlham Əliyev:** Birincisi, deməliyəm ki, bizimlə bölüşdüyünüz informasiya yumşaq desək, həqiqətə uyğun deyil. Bizdə etnik prinsipə görə ölkəyə girişə qadağa yoxdur və erməni xalqının nümayəndələrinin Azərbaycana çoxsaylı səfərləri buna sübutdur. Onlar Avropa Oyunları kimi idman tədbirlərində iştirak edirlər. Ermənistandan olan komanda iştirak edib, mən hətta xatırlayıram ki, Ukraynanın milliyyətcə erməni olan bir nümayəndəsinə gümüş medalı şəxsən özüm təqdim etmişəm. O, qızıl medal qazanan azərbaycanlı boksçu ilə fəxri kürsüdə yanaşı dayanmışdı. Mən onun da əlini sıxıb təbrik etdim və təqribən 30 il ərzində Qarabağda və Zəngəzurda bütün Azərbaycan mədəniyyəti, tarixi, dini irsi məhv edilib. Mən özümlə kitab gətirmişəm, bu, hətta kitab deyil, "Qarabağ işğaldan əvvəl və sonra" adlı fotoalbomdur. Mən onu sizə təqdim edəcəyəm, siz baxarsınız, bu, hər bir sözdən yaxşıdır, orada nə baş verib və təbii ki, çoxlu zərərçəkən, valideynlərindən, yaxınlarından məhrum olan çoxlu insanlar. Bizdə indiyədək itkin düşənlərimizin sayı təqribən 4 mindir. Əfsuslar olsun ki, onlar bizə qaytarılmır və kütləvi məzarlıqların yerləri bildirilmir.

Biz öz vətəndaşlarımızın və qonaqlarımızın təhlükəsizliyinə cavabdehik. Buna görə xahişimiz ondan ibarətdir ki, ya Ermənistan vətəndaşları, ya da erməni soyadlı vətəndaşlar Azərbaycana gələndə müvafiq orqanlar məlumatlandırılsın. Xüsusi halda Rusiyadan söhbət gedirsə, səfirlik və səfir Polad Bülbüloğlu bu təlimatları bilir. Azərbaycana gəlməyə rədd cavabı verilən hallar olub. Lakin belə hallar məhz ona görə olub ki, bu formal qaydalara riayət edilməyib.

Erməni silahlı dəstələrinin nəzarəti altında olan əraziyə təsadüfən düşmüş, öz evlərinə getmək istəyən və tutulub saxlanmış, sonra əsir götürülmüş və işgəncələrə məruz qalmış azərbaycanlıların başına gələnlər barədə danışmaq istəmirəm. Bu, başqa mövzudur. Lakin düşünürəm ki, müharibə başa çatandan sonra əgər Er-

**Marqarita Simonyan:** Siz dediniz ki, mənim sualımda qərəzlilik var. İnanın, qərəzlilik yoxdur. Sizin dediyiniz halları mən bilirəm. Siz deyirsiniz ki, hər halda bunlar xüsusi hallardır. Onlar ölkənin Prezidentinə məlumdur - idman tədbirləri, siyasi, ictimai tədbirlər. Amma, məsələn, mənim bu sistemdə işlədiyim 20 il ərzində heç kəs oraya erməni soyadlı səs rejissorunun da daxil olduğu çəkiliş qrupu göndərə bilməyib. Əgər indi belə deyilsə, Siz erməni soyadlı məni dəvət edirsinizsə, bəlkə mən özümlə daha bir neçə həmkarımı götürüm, onlar məmnuniyyətlə gələrdilər. Mən Sizi düz başa düşdümsə, belə hallarda, əgər biz oraya qrup şəklində gəliriksə, müraciət etmək olar?

**Prezident İlham Əliyev:** Bəli.

**Mixail Qusman:** Bu, o demək deyil ki, Marqaritanın başçılıq etdiyi qrupda işləyənlərin hamısı ermənidir. Xeyr, bu, o demək deyil.

**Prezident İlham Əliyev:** Amma mən fikirləşirəm ki, onların əksəriyyəti ermənilərdir.

**Marqarita Simonyan:** Siz yanılırsınız.

**Prezident İlham Əliyev:** Siz də indicə yanıldınız.

**Marqarita Simonyan:** Mənim 6 min işçim var. Onların əksəriyyəti ingilis və amerikalıdır. Mən düz başa düşürəmmi ki, biz oraya gələ bilərik. İlham Heydər oğlu, mənim beşinci nəslim rusiyalıdır.

**Prezident İlham Əliyev:** Bəli, lakin mən belə başa düşdüm ki, siz indiki halda erməni kimi sual verdiniz.

**Marqarita Simonyan:** Mən öz əməkdaşlarını yalnız etnik əlamətə görə iki ölkəyə - erməni soyadlı insanları Azərbaycana və gürcü soyadlı insanları Abxaziyaya göndərə bilməməklə üzləşən təşkilatın rəhbəri kimi sual verdim. Sadəcə, mənə elə gəlir ki, müasir dünyada bu, düzgün deyil və indi Sizinlə söhbətimizdə hansısa etnik səviyyəyə keçməyimiz də düzgün deyil.

**Prezident İlham Əliyev:** Siz başladınız, mən, sadəcə, düzəliş vermək istədim, dedim ki, sizin dediyiniz düz deyil. Mən yüzlərlə belə misal göstərə bilərəm, erməni soyadlı insanlar həm çəkiliş qrupunun tərkibində, həm rəsmi nümayəndə heyətlərinin tərkibində, o cümlədən Rusiyadan, digər ölkələrdən - Fransadan, ABŞ-dan gəlirlər. Belə hallar çox olub, sadəcə, yəqin bu barədə sizin məlumatınız yoxdur. Lakin düşünürəm ki, siz öz qrupunuzla gəlsəniz, bunu yəqin edərsiniz.



## Ukrayna Rusiya ilə diplomatik əlaqələrini kəsdi

***"Bu səhər tarixə düşdü. Rusiya ilə diplomatik əlaqələr kəsilib".***

"Unikal" xəbər verir ki, bunu Ukrayna Prezidenti Volodimir Zelenski xalqa müraciətində deyib.

"Hər birimiz müstəqilliyimiz üçün çalışırq. Dövlətinizi qorumaq üçün hazır olun. Moskva nə düşünürsə düşünsün, ukraynalılar öz torpaqlarında yaşamaq hüququna malikdir. Bu gündən etibarən Ukrayna dünya tarixində yerini tapdı. Rusiya xalqı seçim qarşısındadır. İstəyən müharibəyə etiraz edə bilər", - o bildirib.

## Rusiya XİN Türkmənçay Müqaviləsinə dair təhrifi aradan qaldırdı

***Rusiya Xarici İşlər Nazirliyinin (XİN) sosial şəbəkə hesabında Türkmənçay Müqaviləsinə dair təhrif aradan qaldırılıb.***



"Unikal" xəbər verir ki, Rusiya XİN-in rəsmi sosial şəbəkə səhifəsində yanlış məlumata müvafiq düzəliş edilib, "Şərqi Ermənistan" sözü çıxarılıb.

Qeyd edək ki, fevralın 22-də Rusiya XİN-in rəsmi sosial şəbəkə hesabında 1828-ci il Türkmənçay Müqaviləsi ilə bağlı təhrif olunmuş məlumat paylaşılıb. Sözügedən müqavilədə "Şərqi Ermənistan" sözünə istinad edilib. Azərbaycan XİN bununla bağlı açıqlama yayaraq Rusiyanı XİN-i bu təhrifi aradan qaldırılmağa çağırıb.

## Naxçıvan əhalisinin sayı artıb

***Naxçıvan Muxtar Respublikasında əhalinin sayı artıb.***

"Unikal" xəbər verir ki, bu barədə Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsinin məlumatında bildirilib.

Qeyd olunub ki, 1 yanvar 2022-ci il tarixə muxtar respublika əhalisinin sayı bir il öncəyə nisbətdə 1430 nəfər artaraq 462 min 960 nəfər olub.



## Azərbaycan XİN-dən Ukraynadakı vətəndaşlara müraciət

***Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Ukraynadakı vəziyyətlə əlaqədar, bu ölkədə daimi və müvəqqəti yaşayan Azərbaycan Respublikasının vətəndaşlarına müraciət edərək onlardan hərbi qüvvələrin cəmləşdiyi ərazilərə (Ukraynanın şərq bölgəsində yerləşən sərhəd vilayətlərinə) səyahət etməməyi, habelə ölkə ərazisindəki hərbi obyektlərdən uzaq olmalarını tövsiyə edir.***

Bu barədə ”Unikal”a Azərbaycan Xarici İşlər Nazirliyindən məlumat verilib.

Vətəndaşlarımıza ehtiyac olmadığı təqdirdə evlərində və ya güvənli yerlərdə qalmaları və səyahətlərdən çəkinmələri məsləhət görülür.

Eyni zamanda, vətəndaşlarımıza Ukrayna dövlət orqanlarının rəsmi məlumatlarını izləmələri tövsiyə edilir.

Xüsusi hallar ilə bağlı vətəndaşlarımız Azərbaycan Respublikasının Kiyev şəhərindəki səfirliyi ilə (+380 73) 5050000 telefon xətti və kiev@mission.mfa.gov.az elektron poçt ünvanı, Xarkov şəhərindəki fəxri konsulluğu ilə (+38057) 7000531 telefon xətti və info.azconsulate@gmail.com elektron poçt ünvanı ilə məlumat əldə edə bilərlər. Vəziyyətin inkişafından asılı olaraq əlavə məlumat Azərbaycan Respublikasının Ukraynadakı səfirliyi tərəfindən bildiriləcək.

## Azərbaycanda komanda-qərargah təlimləri keçirilir

***Müdafiə nazirinin təsdiq etdiyi 2022-ci il döyüş hazırlığı planına əsasən, Quru Qoşunlarının birləşmələri ilə komanda-qərargah təlimləri keçirilir.***

”Unikal” xəbər verir ki, plana uyğun olaraq, həyəcan siqnalı ilə qaldırılan hərbi hissələrin idarəetmə orqanlarının ərazidə açılması təmin olunur və bölmələrin fəaliyyətləri xəritə üzərində dəqiqləşdirilir. Tapşırıqların icrası ilə bağlı komandirlər tərəfindən qəbul edilmiş qərarların məruzələri dinlənilir.

Təlimlərin keçirilməsində əsas məqsəd bölmələrin müxtəlif döyüşə hazırolma vəziyyətlərinə gətirilməsi zamanı komandirlərin idarəetmə qabiliyyətini və çevik qərar qəbuletmə bacarıqlarını artırmaq, eləcə də qərargahların fəaliyyətini və bölmələr arasında qarşılıqlı əlaqəni təkmilləşdirməkdir.

Komanda-qərargah təlimlərində qarşıya qoyulan bütün tapşırıqlar müvəffəqiyyətlə icra olunub.

# “Hər iki bəyannamə milli və dövlət maraqlarımıza tam cavab verir”

## Ziyafət Əsgərov: “İstər qardaş Türkiyə ilə, istərsə də Rusiya ilə imzalanan bəyannamə bir-birini tamamlayır və hər ikisi Azərbaycanın milli maraqlarına tam uyğundur”

***Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri, deputat Ziyafət Əsgərov ”Unikal” qəzetinə müsahibə verib. O, “Rusiya Federasiyası və Azərbaycan Respublikası arasında müttəfiqlik qarşılıqlı fəaliyyəti haqqında Bəyannamə” barədə fikirlərini bölüşüb.***

***-Fevralın 22-də Rusiya Federasiyasının Prezidenti Vladimir Putin və Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev “Rusiya Federasiyası və Azərbaycan Respublikası arasında müttəfiqlik qarşılıqlı fəaliyyəti haqqında Bəyannamə” imzaladı. Bu bəyannamənin ölkəmiz üçün üstünlükləri nədən ibarətdir?***

-Bu Bəyannamə imzalanmamışdan əvvəl bizim 1997-ci il iyulun 3-də “Rusiya Federasiyası və Azərbaycan Respublikası arasında dostluq, əməkdaşlıq və qarşılıqlı təhlükəsizlik haqqında” müqaviləmiz, 2008-ci il iyulun 3-də “Rusiya Federasiyası və Azərbaycan Respublikası arasında dostluq və strateji tərəfdaşlıq haqqında” Bəyannamə, 2018-ci il sentyabrın 1-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevlə Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin Birgə Bəyanatı var. Yeni imzalanan Bəyannamə bunlara əsaslanır. Azərbaycanla Rusiya arasında olan xoş münasibətlərin bundan sonra da inkişaf etdirilməsinə, dostluq, mehriban qonşuluq münasibətlərinin ruhuna uyğundur.

Hesab edirəm ki, bu Bəyannamə Azərbaycanın siyasi, strateji, milli, dövlət maraqlarına tam cavab verir. Bəyannamənin birinci maddəsinə baxsaq, Birləşmiş Millətlər Təşkilatının nizamnaməsində təsbit olunan suverenlik, ərazi bütövlüyü, dövlət toxunulmazlığına qarşılıqlı hörmət, eləcə də bir-birinin daxili işlərinə qarışmamaq, hüquq bərabərliyi, mübahisələrin dinc yolla həll olunması və s. burada öz əksini tapıb. Bütün bunlar bizim milli maraqlarımıza cavab verən, BMT-nin nizamnaməsində təsbit olunmuş prinsiplər, beynəlxalq hüquq normalarıdır. Bu Bəyannamənin ayrıayrılıqda müddəalarına diqqət etsək görərik ki, hər birində Azərbaycanla-Rusiya arasında olan strateji əməkdaşlıq prinsipləri öz əksini tapıb. Burada siyasi, iqtisadi, humanitar və digər məsələlər yer alıb. Bəyannamədə keçmiş münaqişəyə son qoymuş 10 noyabr 2020-ci il tarixli üçtərəfli bəyanatın, eləcə də 11 yanvar 2021-ci il və 26 noyabr 2021-ci il tarixli üçtərəfli bəyanatların müddəalarının həyata keçirilməsinin vacibliyi vurğulanır. Bunlar bir daha Moskva Bəyannaməsində öz təsdiqini tapır. Belə bir Bəyannamənin qəbul olunması alqışlanmalıdır. Bu Bəyannamədə xüsusilə 11-ci maddəni qeyd etmək istəyirəm. Rusiya Federasiyası və Azərbaycan Respublikası öz ərazilərində təşkilatların və şəxslərin digər tərəfin dövlət suverenliyinə, müstəqilliyinə və ərazi bütövlüyünə qarşı yönəlmiş fəaliyyətinin qarşısını qətiyyətli surətdə alırlar.

Məsələn, Azərbaycanın ərazisində hər hansı bir təşkilat, şəxslər ölkəmizin suverenliyinə, müstəqilliyinə, ərazi bütövlüyünə təxribat törədirsə, bunların qarşısı dərhal alınacaq. Tərəflər bunu qəbul edir. Yəni, bu gün Qarabağın işğaldan azad olunmuş ərazilərində müəyyən təxribatçı qruplar bəzən Azərbaycan Silahlı Qüvvələrinə qarşı təxribat törədirlər. Prezident İlham Əliyev bəyanatında qeyd etdi ki, orada qalmış müəyyən təxribatçı hərbi qüvvələrin hamısı Qarabağın ərazisindən çıxarılmalıdır. Ümumilikdə, bu Bəyannamə Azərbaycanı qane edir. Bizim milli və dövlət maraqlarımıza tam cavab verən sənəddir.



***-Bu Bəyannamədə əsas məsələlərdən biri də hərbi- texniki əməkdaşlıqla bağlı idi. Bu sahədə hansı addımlar gözlənilir?***

-Bizimlə Rusiya arasında hərbi-texniki əməkdaşlıq hər zaman olub. Bu gün var, gələcəkdə də olacaq. Azərbaycan və Rusiya Müdafiə Nazirlikləri arasında müəyyən təlimlər keçirilir. İldə bir neçə dəfə belə təlimlər olur. Eyni zamanda Rusiyadan müəyyən silahlar alırıq. Bu əməkdaşlıq müxtəlif aspektlərdə ola bilər. Burada qeyri-adi heç nə yoxdur. Bu indiyə kimi də olub və bundan sonra da olacaq.

***-Ötən il qardaş Türkiyə ilə Şuşa Bəyannaməsi imzalandı. Moskva Bəyannaməsi Türkiyə və eləcə də digər müttəfiq dövlətlər ilə münasibətlərdə hər hansı dəyişiklik anlamına gəlmirki?***

-Bəzi mətbuat orqanlarında bu Bəyannamələri qarşı-qarşıya qoymaq istəyirlər. Bu Bəyannamələri qətiyyən qarşıqarşıya qoymaq olmaz. Hesab edirəm ki, onlar bir-birini tamamlayırlar. İstər qardaş Türkiyə ilə, istərsə də Rusiya ilə imzalanan Bəyannamə bir-birini tamamlayır və hər ikisi Azərbaycanın milli maraqlarına tam uyğundur.

***-Moskva Bəyannaməsi region üçün hansı yeniliklər vəd edir?***

-Prezidentlər mətbuat üçün bəyanatlarında qeyd etdilər ki, müharibədən sonra Qafqazda yeni reallıqlar meydana gəlib. Bu reallıqlar konteksində bu sənədin ortaya çıxması təbii bir hadisədir. Ermənilər bundan bir mesaj aldılar. Onlar indiyə qədər belə hesab edirdilər ki, müharibənin gedişində və ya müharibədən sonra da Rusiya Ermənistanı müdafiə etməlidir. Onların Rusiya ilə müqaviləsi olduğu kimi, bizim də müqavilələrimiz var. Ermənistan hesab edirdi ki, Rusiya açıq şəkildə KTMT vasitəsilə onları müdafiə etməlidir. Amma Rusiya Prezidenti Vladimir Putin müharibədən sonra dəfələrlə bəyanat verdi ki, Qarabağ ərazisi Birləşmiş Millətlər Təşkilatı (BMT) tərəfindən Azərbaycanın ərazisi kimi tanınıb. Beynəlxalq hüquq bunu qəbul edir. Beynəlxalq hüquq prinsipləri bu sənəddə öz əksini tapıb. Ermənilər bundan dərs almalıdırlar ki, bu məsələ artıq bitib. Azərbaycanın ərazi bütövlüyü, suverenliyi, sərhədlərinin toxunulmazlığı aksiomadır və Ermənistan tərəfi bir daha bundan nəticə çıxarmalıdır.

***-Məlum olduğu kimi, bu Bəyannamə cəmiyyətdə də geniş müzakirə olunur. Bunlar arasında anti-Rusiya fikirləri də var...***

-Müəyyən qüvvələr var ki, aranı qarışdırırlar. Buna qətiyyən yol vermək olmaz. Bu sənəd, yüz ölçülüb, bir biçilib. Xahiş edirəm ki, bundan sui-istifadə edənlər bir də Bəyannaməni götürüb oxusunlar. 43 banddən ibarət olan Bəyannamədə Azərbaycanın əleyhinə hər hansı ifadə əks olunmayıb. Hamısı qarşılıqlı, bərabər hörmətə əsaslanır. Rusiya kimi böyük bir dövlət Azərbaycanla bu məzmunda bir sənəd qəbul edirsə, bu, Azərbaycanın artan nüfuzundan irəli gəlir. Bu Azərbaycanın dünya siyasətində çox böyük çəkiyə malik olmasından xəbər verir. Heç bir halda bundan sui-istifadə etmək olmaz. Doğrudur, müəyyən qüvvələr var ki, bundan istifadə edirlər. Rusiya bizim qonşu dövlətdir və hər zaman normal münasibətdə olmuşuq, bunu da saxlamalıyıq. Bu münasibətlərin əsasında beynəlxalq hüquqi müqavilələr dayanır. Bəyannamələr bizim bu münasibətlərə çox yüksək səviyyədə beynəlxalq hüquqi təminat yaradır. Belə bir sənəddən bəhrələnməliyik və bəhrələnəcəyik.

***-Bəyannamədə Zəngəzur dəhlizi ilə bağlı məsələ də yer alıb...***

-Bir daha təsdiq olundu ki, Zəngəzur dəhlizi çəkiləcək. Bu dəhlizdən nəinki avtomobil, dəmiryolu, hətta elektrik xətləri də keçəcək. Naxçıvan elektrik enerjisi ilə dayanıqlı təmin olunacaq. Türkiyəyə, İrana da çıxış olacaq. Bu məsələ bundan əvvəlki Bəyannamələrdə olduğu kimi, Moskva Bəyannaməsində də bir daha təsdiqləndi.

***Anar Kəlbiyev***

# Səlim Müslümov üçün böyük çarəsizlik...

## Sabiq nazirin azadlığa buraxılmaq ümidi qalmadı

***Bu günlərdə Maliyyə Nazirliyinin Dövlət Maliyyə Nəzarəti Xidməti tərəfindən 2021-ci ildə aparılmış nəzarət tədbirlərinin nəticələri açıqlandı. Nəticələr arasında diqqətçəkən məqamlardan biri Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin (ƏƏSMN) Mərkəzi Aparatı və onun tabeliyində olan 28 qurumla bağlı aşkarlanan pozuntular idi.***

Həmin pozuntular arasında əlillərin, sağlamlıq imkanları məhdud uşaqların, müharibə veteranlarının və şəhid ailələrinin sanator-kurort müəssisələrinə göndərilməsi üçün köçürülmüş vəsaitin bir hissəsinin həmin müəssisələrin rəhbərləri tərəfindən Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin sabiq rəhbər işçilərinə qaytarılması, sosial obyektlərin və imtiyazlı şəxslərə fərdi yaşayış evlərinin tikintisində işlərin həcmlərinin artırılması yolu ilə podratçı təşkilatlara artıq vəsaitin ödənilməsi, nazirliyin müvafiq qurumları tərəfindən tətbiq edilən böyük məbləğdə inzibati cərimələrin ödənilməsinin təmin edilməməsi, struktur bölmələr tərəfindən təyin olunmuş pensiya, sosial təminat və təqaüd işləri üzrə pensiya, təqaüd və müavinətlərin artıq hesablanması və ödənilməsi halları vardı.

Həmçinin pensiya, müavinət və təqaüd alan şəxslərin vəfat etdiyi halda onların adlarına ödənişlərin uzun müddət davam etdirilməsi, xeyli sayda şəxsə eyni dövr üçün həm əlilliyə, həm də ailə başçısını itirməsinə görə müavinət və əmək pensiyalarının ödənilməsi, pensiya təyinatı aparılarkən iş stajının bilərəkdən artıq göstərilməsi, işsizlik müavinətlərinin hesablanması qaydalarının pozulması və müavinət təyin olunmuş həmin şəxslərin bundan xəbərsiz olmaları, çoxlu sayda vətəndaşa işsizlik müavinətinin verilməsi kimi nöqsanlar aşkar olunmaqla xeyli məbləğdə vəsaitin təyinatından yayındırıldığı müəyyənləşdirilib.

Dövlət Maliyyə Nəzarəti Xidməti tərəfindən aparılan nəzarət tədbirləri zamanı müxtəlif obyektlərdə, o cümlədən ƏƏSMN-də nöqsanlara yol vermiş vəzifəli şəxslər barəsində "Azərbaycan Respublikasının Maliyyə Nazirliyi tərəfindən baxılan inzibati xətalar haqqında işlərə dair sənədlər və onların tərtib olunması Qaydaları"na uyğun olaraq müvafiq protokollar tərtib edilib, Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 410.1-ci və 410.2-ci maddələrində nəzərdə tutulmuş inzibati xətalar törətdiklərinə görə 108 nəfər vəzifəli şəxsə 82 min manat məbləğində cərimələr tətbiq edilməklə dövlət büdcəsinə ödənilməsi təmin olunub.

ƏƏSMN-dən isə bildirilib ki, Maliyyə Nazirliyinin Dövlət Maliyyə Nəzarəti Xidmətinin məlumatında Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin (ƏƏSMN) Mərkəzi Aparatında və onun tabeliyində olan 28 qurumda həyata keçirilən yoxlamalar 2013-cü ilin oktyabrından 2018-ci ilin aprel ayına qədərki dövrü əhatə edib. Vurğulanıb ki, aşkar olunan nöqsan və qanunsuzluqlar da elə 2013-2018-ci illərə aiddir".

Qeyd edək ki, 2013-cü ilin oktyabrından 2018-ci ilin aprel ayına qədərki dövrdə əmək və əhalinin sosial müdafiəsi naziri Səlim Müslümov olub. O, hazırda həbsdədir.

Ekspertlərin fikrincə, Dövlət Maliyyə Nəzarəti Xidmətinin aşkarladığı faktlar Müslümov üçün "çarəsizlik vəziyyəti" yaradır. Belə ki, bu faktlar eksnazirin azadlığa buraxıla biləcəyinə dair son ümidlərinin də üstündən xətt çəkir. Aydın görünür ki, onun nazir olduğu dönəm tamamilə korrupsiya və rüşvət halları ilə müşayiət olunub. Həmin halların miqyası isə düşünüldüyündən də genişdir. Bu səbəbdən də Müslümovun dövlətə vurduğu ziyanı tam və ya qismən ödəməsi müqabilində az cəza ilə qurtulmaq, mümkün olduğu təqdirdə isə həbs qərarını ev dustaqlığı, yaxud gələcəkdə şərti cəza ilə əvəzləmək şansı, demək olar ki, qalmır.



Daha əvvəl məlumat yayılmışdı ki, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin rüşvət almaqda təqsirləndirilən sabiq Aparat rəhbəri Əjdər Cəbiyev (Əjdər Ol) cinayət işi üzrə dəymiş ziyanı ödəyib. Bildirilir ki, bu barədə Bakı Ağır Cinayətlər Məhkəməsinin hakimi Əfqan Hacıyevin sədrliyi ilə keçirilən prosesdə elan edilib.

O da qeyd olunub ki, Ə.Cəbiyev istintaq dövründə depozitə qoyduğu 589 min manatı zərərçəkmiş qismində tanınan Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə ziyanın əvəzi kimi ödəyib.

Həmin məlumatdan sonra sabiq Aparat rəhbərinin ağır cəzadan qurtula biləcəyi istisna olunmurdu.

Lakin Dövlət Maliyyə Nəzarəti Xidməti tərəfindən açıqlanan ciddi pozuntular həm bunu, həm də Səlim Müslümovun (vurduğu ziyanı ödəyəcəyi təqdirdə belə!) işin içindən yüngül cəza ilə çıxa biləcəyi ehtimalını kəskin şəkildə zəiflədir.

***Toğrul Əliyev***

# Səfir: "İmkan olan kimi Ukraynadakı Azərbaycan vətəndaşları təxliyə ediləcək"

***"Hazırda Azərbaycanın Ukraynadfakı səfirliyi tam heyətlə iş başındadır. Şəxsən özüm də iş yerindəyəm."***

Bunu "Report"un Şəri Avropa bürosuna açıqlamasında Azərbaycanın Ukraynada səfiri Elmira Axundova bildirib.

Səfir deyib ki, vəziyyət tam nəzarət altındadır: "Azərbqaycanın konsulluğu tam gücü ilə işləyir, Azərbaycana getmək istəyən vətəndaşlar müraciət edə bilərlər. Pasportunun vaxtı keçmiş və ya pasportu ilə bağlı digər problemi olanlar da müraciət edə bilərlər. Hazırda Ukraynadakı azərbaycanlılar üçün ən təhlükəsiz şərait öz qaldığı evdən çıxmamaqdır. Çünki bütün yollar bağlanılıb, ölkədən çıxış mümkün deyil. Ölkədə vəziyyət təhlükəlidir. Bizim özümüzün də, yeni diplomatların təxliyəsi hələlik həyata keçirilmir. Əgər təxliyə mümkün olarsa, 3-4 diplomat qalıb işləyəcək, qalan diplomatların ailələri hansı ki, onlar, təqribən, 40 nəfərdir, Ukraynadan çıxarılması yollarını arayırıq. Eyni zamanda, hazırda Azərbaycandan Xarkovda kurs keçən 17 fövqəlada hallar əməkdaşı ilə yanaşı, Ukraynadakı Azərbaycan vətəndaşlarının da təxliyəsini mümkün olan kimi edəcəyik. Amma hələlik bu barədə düşünürük. Çünki hələ məlum deyil, onları hansı yolla ölkədən çıxara bilərik".

E.Axundova səfirliyin 00380735050000 nömrəli qaynar xəttinin işlədiyini xatırladaraq ölkədəki Azərbaycan vətəndaşlarına istənilən aidiyyəti məlumat ilə bağlı müraciət edəcəyini söyləyib.

Səfir eyni zamanda, vətəndaşlara Azərbaycan Xarici İşlər Nazirliyinin bu gün səhər yaydığı müraciətlə tanış olmağa çağırıb.

Qeyd edək ki, bu gün səhər saatlarından Kiyev də daxil olmaqla Ukraynanın Xarkov, Mariopol, Odessa, İvano-Frankovsk vilayətlərində silsilə partlayışlar baş verir. Donbasda isə şiddətli döyüşlər gedir.

# Mehriban Əliyeva COVID-19-la bağlı vəziyyətdən danışdı

***"Hazırda vəziyyətə görə demək olar ki, Azərbaycanda son dalğa azalmaqdadır. Lakin maraqlıdırsa, mən bir qədər təcrübəmiz barədə danışa bilərəm, çünki Azərbaycan da daxil olmaqla, bütün ölkələrin qarşılaşdığı vəziyyət qeyri-adi idi və problem çox böyük idi. İki ildən bir qədər artıq müddət keçəndən sonra hazırda bizdə müəyyən təcrübə var və mən onu bölüşə bilərəm".***

"Unikal" xəbər verir ki, bu fikirləri Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva fevralın 23-də TASS agentliyində Rusiyanın aparıcı kütləvi informasiya vasitələrinin rəhbərləri ilə görüşdə deyib. "Bütün bunlar başlayanda, 2020-ci ilin fevral-mart ayları idi. Yəqin ki, hamınız xatırlayırsınız, müxtəlif versiyalar var idi, kimsə inanırdı, kimsə dərk edirdi, kimsə anlamırdı, inkaretmə mövcud idi. Fevral ayının sonunda biz aydın şəkildə dərk edirdik ki, nəyisə həqiqətən də çox ciddi hadisə baş verir və bu, qeyri-ordinar, təxirəsalınmaz tədbirlərin görülməsini tələb edir. Mən hesab edirəm ki, sonrakı işin uğurlu həyata keçirilməsinin başlıca səbəblərindən biri yəqin ki, çox peşəkar qərargahın, komandanın tez bir zamanda yaradılmasına nail olmağımızdır. Üstəlik, aydın idi ki, burada yalnız tibb işçiləri ilə kifayətlənmək olmaz, diapazon tamamilə genişdir və hökumət üzvləri, ekspertlər, gənc alimlər, xüsusilə riyaziyyatçılardan ibarət qrup toplandı. Çünki artıq o vaxt aydın idi ki, hesablamaq, proqnozlaşdırmaq lazım olacaq".

# "Azərişıq" "Laçın dəhlizi"ndə

***"Azərişıq" ASC işğaldan azad edilmiş ərazilərə elektrik enerjisi şəbəkəsi çəkilməsi ilə əlaqədar olaraq işlər görür.***

"Unikal"ın əldə etdiyi videogörüntülərə görə, qurum "Laçın dəhlizi"ndə bastırılacaq dayaqları üçün yol yatağını hazırlayır.

Hazırda görülən işlər Laçının Minkənd və digər kəndlərini elektrik enerjisi ilə təmin edəcək elektrik enerjisi şəbəkəsinin çəkilişi üçün həyata keçirilir. Qeyd edək ki, təchizat işləri "Azərişıq Qarabağda" layihəsi çərçivəsində həyata keçirilir.

# Bakıda bina çökdü, xəsarət alanlar var

***Paytaxtın Nərimanov rayonunun Keşlə qəsəbəsində "City Garden" şirkətinin tikilməkdə olan binalarının birinin çökməsi barədə məlumat daxil olub.***

Baş Prokurorluqdan verilən məlumata görə, faktla bağlı Baş Prokurorluğun İstintaq idarəsinin əməkdaşları tərəfindən hazırda hadisə yerinin müayinəsi həyata keçirilir.

Nərimanov rayonunda inşa olunan "City Garden Nərimanov" yaşayış kompleksi haqqında Kütləvi İnformasiya Vasitələrində inşası davam edən yaşayış binasının uçması ilə bağlı yayılan məlumatlar tam əsassızdır. "Unikal" xəbər verir ki, qeyd edilən ərazidə inşa edilməkdə olan texniki təyinatlı qeyri-yaşayış binasında sonradan layihə üzrə köklü dəyişikliklər edildiyi üçün yığılmış beton qəliblərinin sökülmə prosesi başladılıb. Sökülmə zamanı podratçı şirkətin işçilərindən 1 nəfər yüngül xəsarət alıb.

# Ukraynada yaşayan azərbaycanlılar üçün qaynar xətt yaradıldı



***Ukraynada yaşayan azərbaycanlılar üçün qaynar xətt yaradılıb.***

"Unikal" xəbər verir ki, bu barədə Diasporla İş üzrə Dövlət Komitəsindən məlumat verilib.

Bildirilib ki, Dövlət Komitəsi Ukrayna ətrafında yaranmış vəziyyətlə əlaqədar diaspor təşkilatları və diaspor fəalları ilə sıx əlaqədədir:

"Ukraynada telefon və internet əlaqəsi kəsilmədiyi üçün soydaşlarımız arasında kommunikasiya mövcuddur. Ukraynada çoxlu sayda azərbaycanlıların yaşadığını nəzərə alaraq, Ukrayna Azərbaycanlıları Radasında operativ qərargah yaradılıb. Ukraynada, xüsusilə gərginliyin hökm sürdüyü bölgələrdə yaşayan soydaşlarımız hər hansı problem yaranacağı təqdirdə, +380442773489 telefon nömrəsi və info@rau.in.ua email ünvanı ilə əlaqə saxlaya bilərlər. Mövcud vəziyyətlə əlaqədar soydaşlarımıza hər cür mənəvi və informasiya dəstəyini təmin etmək məqsədilə Ukrayna Azərbaycanlıları Radasının operativ qərargahı 24 saat fəaliyyət göstərir".

# Azad olunmuş ərazilərə ilk növbədə kimlər qaytarılacaq? - Prezident



***"Bizim qarşıda böyük işlərimiz var - su, işıq, qaz, yollar, minalar, evlər. Biz başlamışıq, biz ötən il 1 milyard 300 milyon dollar ayırmışdıq, bu il isə eyni vəsaiti bərpa işlərinə ayırmışıq. Pilot layihə icra olunur, lakin bu, vaxt aparacaq. Deməliyəm ki, bununla paralel olaraq, işğal dövründə biz qaçqınlar üçün fəal şəkildə evlər tikirdik, hər il təxminən 5-6 min ailəni, təqribən 30 min insanı yerləşdirirdik. Yəni, onlardan təqribən 70 faizi normal yaşayır".***

"Unikal" xəbər verir ki, Azərbaycan Prezidenti İlham Əliyev Rusiya Federasiyasına rəsmi səfəri çərçivəsində fevralın 23-də TASS agentliyində bu ölkənin aparıcı kütləvi informasiya vasitələrinin rəhbərləri ilə görüşü zamanı bildirib.

"Biz Bakıda, Sumqayıtda, Gəncədə və bir çox şəhərlərdə evlər tikirdik. Lakin onların 30 faizi hələ də uyğunlaşdırılmayan binalarda, yataqxanalarda, uşaq bağçalarında və ağır şəraitdə yaşayır. Buna görə də, ilk növbədə, bu kateqoriyadan olan insanlar geri qaytarılacaq. Artıq bizim tərəfimizdən Ağdam, Füzuli, Şuşa şəhərlərinin tikintisinin Baş planları işlənib hazırlanıb, digər şəhərlərinki də yaxın vaxtlarda təsdiqlənəcək. Hər şey plan üzrə yerinə yetiriləcək, heç bir qarma-qarışıqlıq olmayacaq. "Yaşıl enerji" prinsipi əsas götürüləcək. Qarabağ və Şərqi Zəngəzurun bütün zonası "yaşıl enerji" zonası və "ağıllı şəhərlər", "ağıllı kəndlər" konsepsiyası olacaq. Bu insanlar çox gözləyiblər, bu səbəbdən onlar Azərbaycanda mümkün olan ən yaxşı şəraitdə yaşamalıdırlar. Mən konkret müddət deyə bilmərəm, hətta onlarla görüşlərdə deyə bilmərəm, onları yanılda bilmərəm. Biz bu prosesi sürətləndirmək üçün hər gün, hər saat hər şey edirik. Lakin bizə, əlbəttə ki, kömək lazımdır, məhz minalardan təmizlənmə baxımından, hətta maliyyə yardımı deyil, texniki yardım lazımdır. Sadəcə, biz fiziki cəhətdən çatdıra bilmirik. Bizim Minatəmizləmə Agentliyimiz var, Müdafiə Nazirliyində bir neçə batalyonumuz var, FHN qrupu var. Lakin fiziki baxımdan çatmır, çünki bu, çox ləng prosesdir. Buna görə də biz beynəlxalq strukturlara kömək üçün müraciət etmişik. Lakin əfsuslar olsun ki, artıq bir il üç ay keçib, hələ də müraciətimiz cavabsız qalıb", - deyə dövlət başçısı vurğulayıb.

# Ermənistan Baş Qərargah rəisi işdən çıxarıldı

***Ermənistan Silahlı Qüvvələrinin Baş Qərargah rəisi Artak Davtyan vəzifəsindən azad edilib.***

"Unikal" xəbər verir ki, bu barədə fərmanı prezident səlahiyyətlərini icra edən Alen Simonyan imzalayıb.

# Etibar Pirverdiyev öz bankını necə dirçəldir...

## "İşıq şefi"nin "biznes imperiyası" öz qüdrətini geri qaytarmağa başlayır?

***Bir neçə gün əvvəl mediada "Expressbank"ın sahibkarlıq subyektlərinin inkişafı üçün Azərbaycan Respublikası Sahibkarlığın İnkişafı Fondu ilə sıx əməkdaşlığını davam etdirdiyi barədə məlumat yayıldı.***

Məlumatda təntənəli şəkildə bildirilirdi ki, "biznes subyektlərinə dəyən zərərlərin minumuna endirilməsi, sahibkarlıq strukturlarının maddi vəziyyətlərinin stabilləşdirilməsi, iş yerlərinin davamlılığının təmin edilməsi məqsədilə pandemiya dövründə sahibkarlara aktiv dəstəyinə görə "Expressbank" aparıcı yerlərdən birini tutub".

Elə Sahibkarlığın İnkişafı Fondu tərəfindən rəsmi olaraq açıqlanan məlumatda da adıçəkilən bank 2020 və 2021-ci illərdə güzəştli kredit almaq üçün müraciət etmiş və pandemiyadan zərər çəkmiş iş adamlarına 31.4 milyon manat məbləğində kredit verdiyi bildirilib.



Maraqlıdır ki, "Expressbank"-ın adı cəmi bir il öncəyədək ölkədə bağlanma ehtimalı yüksək olan bankların sırasında çəkilirdi. Bu da səbəbsiz deyildi; çünki Bank son illəri zərərlə başa vururdu. Məsələn, 2018-ci ilin yekun hesabatlarına görə, ən çox zərər edən banklar arasında birinci yerdə 23 milyon 755 min manat zərərlə "Expressbank" qərarlaşmışdı. Əslində, bu bankın həmin ilki faiz və qeyri-faiz gəlirlərində, eləcə də ümumi gəlirlərində 6 milyon manata yaxın artım müşahidə olunsa da, ehtimal olunan kredit itkiləri üçün 24 milyon 988 min manatlıq ehtiyat yaradılması onun 2 milyon 155 min manat faiz zərəri etməsilə nəticələnib. "Expressbank"ın zərərində inzibati və ümumi xərclərinin 26 milyon 128 min manat təşkil etməsinin xüsusi rolu olub.

Xatırladaq ki, "Expressbank" ASC 21 iyun 1989-cu il tarixində təsis olunmuş və uzun müddət "Azərnəqliyyatbank" adı altında fəaliyyət göstərmişdir. Bank öz fəaliyyətini Azərbaycan Respublikasının Mərkəzi Bankı tərəfindən 30 dekabr 1992-ci il tarixində verilmiş lisenziya əsasında həyata keçirir. Bankın Səhmdarlarının Ümumi Yığıncağının 01 fevral 2010-cu il tarixli qərarı ilə "Azərnəqliyyatbank" ASC-nin adı dəyişdirilərək "Expressbank" ASC adlandırılmış və Nizamnaməyə müvafiq dəyişiklik 04 mart 2010-cu il tarixində dövlət qeydiyyatına alınmışdır.

Dəyişiklik bununla da məhdudlaşmır: 32 illik bank faktiki olaraq Pirverdiyevin tam nəzarətindədir. Belə ki, bankın əsas səhmdarlarından biri Xammədov Hikmət Hacəmməd oğlu (19.5 faiz pay) Pirverdiyevin qaynıdır. Ən iri payçı "Azenco Group MMC" (48.78 faiz pay) isə keçmiş "işıq şefi"nin şirkətidir. Elə digər iri payçı - "Enerqoservis MMC" (21.57 faiz) haqqında da bunu demək olar.

Bir sözlə, "Expressbank"ın Pirverdiyevlə bağlılığı şübhə doğurmur. Sabiq "işıq şefi" vəzifəsini itirdikdən sonra bu bank böhranlı günlər yaşamağa, zərərlə işləməyə başlamışdı. Hətta, yuxarıda da vurğuladığımız kimi, onun bağlana biləcəyi də gündəmə gəlmişdi. Lakin son zamanlar "Expressbank"ın maliyyə göstəricilərinin yaxşılaşdığına dair xəbərlər, bu bankın sahibkarlara ən çox dəstək verən banklar arasında liderliyinə dair məlumatlar vəziyyətin dəyişdiyini söyləməyə imkan verir. Hətta "Fitch Ratings" beynəlxalq reytinq agentliyi təxminən bir müddət öncə "Expressbank"ın yüksək reytinqini növbəti dəfə təsdiqləyib. Belə ki, iqtisadi mühit, müştəri portfelinin dinamikası və keyfiyyəti, artım perspektivləri, şəffaflıq, gəlirlilik, və s. kimi vacib göstəricilər əsasında bankları qiymətləndirən "Fitch Ratings" "Expressbank"ın biznes strategiyası, uğurlu siyasəti, stabil maliyyə göstəricilərinə yüksək qiymət verərək Bankın reytinqini "B" səviyyəli "stabil" proqnozu ilə təsdiqləyib. "Pandemiyanın yaratdığı qeyri-ənənəvi bazar mühitinin ölkə iqtisadiyyatına göstərdiyi təsirlərə baxmayaraq nüfuzlu Beynəlxalq reytinq agentliyi tərəfindən Bankın yüksək reytinqinin dəyişməz olaraq saxlanılması bazarda Bankın sağlam mövqeyi və maliyyə dayanıqlığının göstəricisidir" - həmin vaxt "Expressbank"dan bununla bağlı yayılan məlumatda deyilirdi.

Bəs vəziyyətin 180 dərəcə dəyişməsinin səbəbi nədir? İddialar bu yöndədir ki, E.Pirverdiyev son zamanlar bütün diqqətini özünün bank biznesinə yönəldib. "Azərenerji"nin sabiq rəhbərinin bunun üçün imkanlarını səfərbər etdiyi deyilir. Qeyd olunur ki, bütün bunların müqabilində çöküş mərhələsində olan, hətta bağlana biləcəyinə dair xəbərlərlə gündəmə gələn "Expressbank" üçün kritik mərhələ arxada qalıb. Hər halda iqtisadi KİV-lərin səhifələrində yer alan məlumatlardan bu cür qənaət hasil olur.

Bununla belə, vəzifədə olarkən korrupsiya əməlləri ilə ad çıxarmış, elə həmin əməllərin də güdazına getmiş Pirverdiyevin digər şirkətləri üçün böhranlı durumun davam etdiyi də yayılan iddialar arasındadır...

***Sənan Mirzə***

# Yeni məmur həbsləri gözlənilir

## Prezidentin xəbərdarlığı hansı vəzifəlilərə yönəlib?

***"Heç kim qanundan yuxarı ola bilməz. Qanun qarşısında hamı bərabərdir". Bunu fevralın 18-də Prezident İlham Əliyev yeni təyin olunan icra başçılarını videoformatda qəbul edərkən deyib.***

"Dövlət məmurunun üzərinə düşən vəzifə və məsuliyyət onları dediyim prinsiplərə riayət etmələrinə sövq etməlidir. Əks təqdirdə onlar cəzalandırılacaq və artıq gördüyümüz işlər bunu təsdiqləyir. Böyük vəzifə böyük imtiyaz deyil, böyük məsuliyyətdir. Ona görə bu məsuliyyəti dərk edərkən siz öz addımlarınızı da bu istiqamətdə atmalısınız. Kadr sahəsində kadrların düzgün seçilməsi böyük dərəcədə işlərin uğurla getməsinə şərait yaradacaq. Ona görə kadrların seçilməsində, ilk növbədə, insanların iş qabiliyyəti nəzərə alınmalıdır, dövlətçiliyə, dövlətə sədaqət nəzərə alınmalıdır, vətənpərvərlik nəzərə alınmalıdır. Tanışlıq, qohumluq əlaqələri və hansısa başqa prinsiplər tamamilə aradan qaldırılmalıdır. Elə kadrlar seçilməlidir ki, bu kadrlar dövlət məmurları qarşısında duran vəzifələri şərəflə yerinə yetirsinlər. Eyni zamanda, qeyd etdiyim kimi, vətənpərvər insanlar, dövlətə, xalqa bağlı olan insanlar, əlbəttə ki, ön plana çıxmalıdır və kadr təyinatları aparılanda bu, nəzərə alınmalıdır", - dövlət başçısı vurğulayıb.

Beləliklə, ölkə rəhbəri "məmur xalqın, vətəndaşın yanında olmalıdır" deyə mesaj verib, xüsusilə insanları işə qəbul edərkən başqa amilləri deyil, məhz onların bilik, bacarıq və fəaliyyət göstərəcəkləri sahə üzrə vərdişlərə malik olmalarını nəzərə almağı tapşırıb. Prezident həmçinin dostluq, qohumluq əlaqələrinə əsasən kadrların təyin olunmasına son qoyulmasını istəyib. Çünki bunun sonradan hansı neqativ nəticələrə gətirib çıxardığı illərin təcrübəsindən hər birimizə məlumdur.

Beləliklə, ölkə başçısı birincisi, işə qəbul edən zaman yalnız kadrların bilik, bacarıq vərdişlərinin nəzərə alınmasını, ikincisi, hər zaman vətəndaşların arasında olmaq, onların problemləri ilə birbaşa yerində tanış olmağı, üçüncüsü isə şəhid ailələrinin üzvlərinə daim diqqət göstərməyi tapşırıb.

Bunu yalnız yeni təyin olunan icra başçılarına tapşırıq kimi qiymətləndirmək doğru olmazdı. Bu, eyni zamanda hazırda vəzifə tutan iri məmurlara da bir xəbərdarlıqdır. Dövlət rəhbərinin müəyyənləşdirdiyi prinsiplərə riayət etməyən yüksək vəzifəlilərin aqibətinin necə olacağını isə proqnozlaşdırmaq çətin deyil. Həmin məmurların barəsində ən sərt cəza tədbirlərinə əl atılması istisna edilməməlidir.

Bu yerdə son illərin, eləcə də arxada qalan 2021-ci ildə vəzifə səlahiyyətlərini aşan, korrupsiyaya bulaşan məmurların həbsini xatırlatmaq yerinə düşər. Təkcə ötən il yüksək vəzifəli bir neçə şəxs dəmir barmaqlıqlar arasına salınıb. Bunlar arasında hətta keçmiş nazirlər də var. Məsələn, sabiq əmək və əhalinin sosial müdafiəsi naziri Səlim Müslümov. DTX tərəfindən saxlanılan sabiq nazir barəsində həbs qətimkan tədbiri seçilib. Bir neçə ay öncə saxlanılan Müslümov Cinayət Məcəlləsinin 308.2-ci (ağır nəticələrə səbəb olan vəzifə səlahiyyətlərindən sui-istifadə), 311.3.2-ci və 311.3.3-cü maddələri (təkrar külli miqdarda rüşvət alma) ilə təqsirləndirilir. 2017-ci ilədək Naxçıvanın daxili işlər naziri olmuş general-leytenant Əhməd Əhmədov da hazırda həbsdədir. Mənimsəmədə ittiham olunan sabiq nazir barədə 4 aylıq həbs qətimkan tədbiri seçilib. Naxçıvanın sabiq daxili işlər naziri Əhməd Əhmədovun həbsindən sonra Muxtar Respublikanın keçmiş təhsil naziri Məmməd Qəribov da saxlanılıb. O da yeyintidə ittiham edilib. M.Qəribov 2016-cı ilin fevral ayında təhsil naziri təyin edilib, 2018-ci ilin iyul ayında vəzifədən çıxarılıb.

2021-ci ildə həbs edilən yüksək vəzifəli məmurlar arasında "Azərxalça" ASC-nin İdarə heyətinin sabiq sədri Vidadi Muradov (zindanda vəfat edib), Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun (KİVDF) sabiq icraçı direktoru Vüqar Səfərli, Bakı Şəhər İcra Hakimiyyətinin keçmiş aparat rəhbəri Rasim Quliyev və s. var.

Bundan başqa korrupsiya əməllərinə görə hazırda çox sayda sabiq icra başçısı həbsə atılıb. Onlarla yanaşı, həbs edilən birinci müavinlər, rayonda müxtəlif rəhbər vəzifədə çalışmış şəxslər də var. Belələrindən Ağstafanın sabiq icra başçısı Nizaməddin Quliyev (həbsdə vəfat edib) və onun müavini Ramiz Tatarov, Yevlaxın sabiq icra başçısı Qoca Səmədov, Neftçalanın sabiq icra başçısı İsmayıl Vəliyev və birinci müavini Vurğun Əkbərov, eyni rayonun Mərkəzi Xəstəxanasının baş həkimi Telman Zahidov, rayon Təhsil şöbəsinin müdiri Əjdər Kərimov, Biləsuvarın sabiq icra başçısı Mahir Quliyev, İmişlinin sabiq icra başçısı Viliyam Hacıyev, Kürdəmirin icra başçısı Ceyhun Cəfərov, müavini Tacəddin Novruzov və şöbə müdiri Natiq Kərimov, Cəlilabadın sabiq rayon rəhbəri Namiq Zeynalov və digərlərini xatırlatmaq olar. XİN-də, Mədəniyyət Nazirliyində antikorrupsiya əməliyyatları, bir çox yüksək vəzifəlilərin həbsi də unudulmamalıdır.

Göründüyü kimi, son illərdə çox ciddi vəzifədə çalışan şəxslər həbs edilib. Onların məhz ölkə rəhbərliyinin müəyyənləşdirdiyi idarəetmə prinsiplərinə riayət etmədiyi, xalqa, dövlətə xidmət əvəzinə öz maraqlarına qulluq elədiyi üçün qandallandığı hər kəsə bəllidir. Ölkədə islahatların davam etdiyini, eləcə də, dövlət başçısının mütəmadi olaraq məmur korpusuna ciddi tapşırıqlar verdiyini, sərt xəbərdarlıq etdiyini nəzərə alsaq, həbslərin davamının gələcəyi də istisna deyil.

Prezidentin də dediyi kimi, heç bir vəzifəli şəxs toxunulmaz deyil. Qeyri-qanuni əməllərə imza atanlar, sözsüz ki, bundan sonra da qanun qarşısında cavab verəcək.

***Sənan Mirzə***



# Türkiyə Təhlükəsizlik Şurasının iclası keçirildi

***Türkiyədə Prezident Rəcəb Tayyib Ərdoğanın sədrliyi ilə Təhlükəsizlik Şurasının toplantısı keçirilib.***

"Unikal" xəbər verir ki, toplantıda Ukraynadakı vəziyyət müzakirə olunub.

Tədbirdə Türkiyənin vitse-prezident Fuat Oktay, milli müdafiə naziri Hulusi Akar, daxili işlər naziri Süleyman Soylu, Baş Qərargah rəisi, Ordu generalı Yaşar Gülər, Milli Kəşfiyyat Təşkilatının rəhbəri Hakan Fidan, Türkiyə Prezident Administrasiyasının Kommunikasiya İdarəsinin sədri Fahrettin Altun, Prezidentin şəxsi katibi Həsən Doğan və Prezident Administrasiyasının sözçüsü İbrahim Kalın iştirak ediblər.

# Xocavənddə kütləvi məzarlıq aşkarlandı

***Xocavəndin Edilli kəndində kütləvi məzarlıq aşkarlanıb.***

Kütləvi məzarlıq Azərbaycan Respublikasının Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyası İşçi qrupunun topladığı şahid ifadələri və materiallar əsasında müəyyən edilib.

İşçi qrupunun üzvü Zaur İsmayılov Trend-ə açıqlamasında bildirib ki, araşdırmalar zaman məlum olub ki, işğaldan azad edilən Ağdam, Füzuli, Xocavənd və Şuşa şəhərinin ətraflarında da belə məzarlıqlar mövcuddur.

"Onlardan biri də Xocavəndin Edilli kəndindədir. Şahidlərin ifadələrinə əsasında məzarlığın aşkarlanması mümkün olmuşdur. İlkin məlumatlara görə, orda 15-20 nəfərin qalıqlarının olma ehtimalı var.

Dövlət Komissiyasında bəzi kütləvi məzarlıqların məlumatları var. GPRS koordinatlar müəyyən olunub. Orada dəfn olunan insanların sayı müəyyənləşib. Ardıcıl olaraq, ərazilər minalardan təmizləndikcə, məzarlıqlar da açılacaqdır", - deyə o əlavə edib.

Zaur İsmayılov bildirib ki, Füzuli rayonunun Seyidəhmədli kəndində keçmiş "Kolxoz idarəsi" deyilən ərazidəki meydançada 10 nəfərdən çox azərbaycanlının basdırıldığı kütləvi məzarlıq barədə də məlumatlar da var. Həmin ərazi minalı olduğu üçün hələlik araşdırma aparmaq mümkün olmayıb.

# Yol polisindən dumanlı hava şəraiti ilə bağlı sürücülərə müraciət

***Baş Dövlət Yol Polisi İdarəsi (BDYPİ) dumanlı hava şəraiti ilə bağlı hərəkət iştirakçılarına müraciət edib.***

BDYPİ-dən "Unikal"a daxil olan müraciətdə deyilir: "Hazırda paytaxtda, eləcə də respublikanın bir sıra rayonlarında dumanlı hava müşahidə edilir ki, bu da məhdudiyyətli görünmə şəraitində yol hərəkəti iştirakçılarına, xüsusilə sürücülərə bir sıra çətinliklər yaradır.

Qatı duman yol hərəkəti zamanı nişanların, nişanlama xətlərinin, ümumiyyətlə nizamlama vasitələrinin və digər hərəkət iştirakçılarının vaxtında və aydın görünməsinə maneə yaratdığı üçün sürücülər belə havalarda daha da diqqətli olmalı, sürət həddini hava şəraitinə uyğun seçməli, nəqliyyat vasitəsinin, xüsusilə xarici işıq cihazlarının sazlığına əmin olmalı, dayanma, durma, parklanma, eləcə də ötmə və manevr etmə zamanı təhlükəsizlik qaydalarına ciddi riayət etməli, xoşagəlməz hadisələrin baş verməməsi üçün qabaqlayıcı tədbirlər görməlidirlər.

Eyni zamanda, piyadalar da dumanlı hava şəraitində sürücülərin yolun hərəkət hissəsini və kənarlarını görməkdə çətinlik çəkdiklərini nəzərə alaraq, özlərinin və digər hərəkət iştirakçılarının həyat və sağlamlığını təhlükəyə atmamalı, belə havalarda yola çıxarkən daha da məsuliyyətli olmalıdırlar".

# Salyanda yeni içməli su infrastrukturları yaradılır

***"Azərsu" ASC Prezident İlham Əliyevin təsdiqlədiyi "Regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramı" çərçivəsində Salyan şəhərində yeni içməli su-kanalizasiya infrastrukturları yaradır.***

"Unikal" bu barədə quruma istinadən xəbər verir.

Yeni layihənin icrasına qədər Salyan şəhərində 1950-70-ci illərdə yaradılmış içməli su və kanalizasiya sistemləri istismarda olub. Şəhərdaxili şəbəkə istismara yararsız vəziyyətə düşdüyündən əhalinin içməli su təminatında ciddi çətinliklər yaranırdı. Salyan şəhərinin yeni salınmış Gilan adlanan yaşayış massivinin isə ümumiyyətlə şəbəkəsi olmayıb və sakinlər içməli suyu əsasən daşıma yolu ilə əldə edirdilər.

Şirvan-Muğan qrup su kəmərindən Salyan şəhərinə 9 km magistral su xəttinin və 7500 kubmetr tutumu olan su anbarının istismara verilməsi ilə şəhərin su təminatı üçün əlverişli imkanlar yaranıb. Ötən müddətdə mərhələlərə Salyan şəhərinin və şəhər mərkəzinə yaxın Babazanlı yaşayış massivinin içməli su şəbəkəsi yenidən qurulub. Hazırda Salyan şəhərinin yeni yaşayış massivində içməli su şəbəkəsi yaradılır. Bu mərhələ çərçivəsində 11,5 km içməli su şəbəkəsinin 7,5 km-lik hissəsi inşa edilib. Yeni yaradılan şəbəkədən hər bir ünvana birləşmələr verilir. Ümumilikdə ötən müddətdə Salyan şəhərində inşası nəzərdə tutulan 131 km içməli su şəbəkəsinin 105 km-lik hissəsi inşa edilib.

Salyan şəhərində tullantı su infrastrukturunun yenidən qurulması növbəti mərhələlərdə həyata keçiriləcək. Layihə çərçivəsində 123 km kanalizasiya şəbəkəsinin yaradılması nəzərdə tutulub. Ötən müddətdə şəhərin mərkəzi hissəsində 5 km kanalizasiya şəbəkəsi yaradılıb, mövcud kanalizasiya nasos stansiyası bərpa edilib və 4,7 km uzunluğunda təzyiqli kanalizasiya xətti yenisi ilə əvəz olunub. Salyan şəhərində yaranan tullantı sularının təmizlənib zərərsizləşdirilməsi məqsədilə gələcəkdə məhsuldarlığı sutkada 10 min kubmetr olan tullantı sutəmizləyici qurğu inşa ediləcək.

Salyan şəhərinin içməli su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması layihəsindən 2035-ci ilə perspektiv inkişaf nəzərə alınmaqla Salyan şəhərində 35 min nəfər sakin faydalanacaq.

# Rusiya erməniləri Azərbaycan diasporunun uğurlarından narahatdı

***44 günlük Vətən müharibəsindən sonra Azərbaycan və Ermənistan arasında gizli informasiya savaşı davam edir. Silahların susduğu postmüharibə dövründə əsas proseslər diplomatiya müstəvisində gedir.***

Ermənistan ordusunun biabırçı məğlubiyyəti bu ölkənin siyasi-iqtisadi çöküşünü sürətləndirməklə yanaşı, xaricdəki diaspor təşkilatlarının fəaliyyətində dərin böhran yaradıb. Əlbəttə, bu gün əminliklə demək olar ki, qalib Azərbaycanın diaspor təşkilatlarının ölkə hüdudlarından kənarda mütəşəkkil fəaliyyəti erməni lobbisini çıxılmaz vəziyyətə salıb. Bunu təkcə biz demirik, erməni fəalları özləri də etiraf edirlər.

Müharibədən sonra Azərbaycan diasporu ermənilərin kompakt yaşadığı yerlərdə ölkəmizin təbliğatını daha da gücləndirib. Xüsusilə Rusiyadakı diasporumuz erməni təxribatlarının qarşısını alaraq, onların yalanlarını ifşa edir və Rusiya ictimaiyyətini Azərbaycan həqiqətləri barədə məlumatlandırır. Bu xüsusda Rusiya erməniləri Azərbaycan diasporunun uğurlarından ciddi narahat olmağa başlayıb.

Russia-Armenia.info analitik-informasiya portalının təsisçisi və baş redaktoru, erməni diaspor fəalı Aram Xaçatryan bildirib ki, artıq Rusiyada Ermənistanın səsinin eşidilməsi çətindir və ya heç kim erməniləri eşitmək istəmir.

"Azərbaycanın zəngin yerli iş adamları Rusiyadakı Azərbaycan diasporunun elmi və informasiya təşəbbüslərinə fəal sponsorluq edirlər. Bu, xüsusilə, 2020-ci ildə özünü açıq şəkildə büruzə verdi. O zaman Rusiyada informasiya mühitində Ermənistanı dəstəkləyənlər çox az idi. 2020-ci ilin yayında Ermənistanla Azərbaycan arasında silahlı münaqişə zamanında Azərbaycan diasporunun rusiyalılara necə ciddi nəzarət etdiyini açıq şəkildə görürdük.

Hətta iş o yerə çatıb ki, TASS İnformasiya Agentliyinin baş redaktorunun müavini Mixail Qusman Azərbaycanın böyük qələbəsindən sonra artıq sevincdən ağlayırdı. 2020-ci ildə müharibə zamanı az qala sözbəsöz Azərbaycanın informasiya mesajlarını Rusiyada eşidirdik. Bu, artıq Ermənistan diasporunun taqətsiz çöküşü idi. Rusiyanın erməni diasporunda olan böyük iş adamları özlərini məsuliyyətsiz aparırlar. Onlar informasiya müharibəsini Azərbaycana qarşı uduzurlar. Hələ də başa düşməyiblər ki, Azərbaycanın diasporu bizim düşündüyümüz qədər zəif deyil. Qonşularımızdan geri qalırıq, təhlükəli şəkildə geri dönüşü olmayan nöqtəyə yaxınlaşırıq",- erməni diaspor fəalı ölkəsinin acizliyini etiraf edib.

# Azərbaycanda 55 milyon dollarlıq şübhə...

## Ölkəmizə palma yağının idxalı da artır, bu yağla bağlı mübahisələr də... - Bəs görəsən, kim haqlıdır?

***Dövlət Statistika Komitəsinin məlumatına görə, ötən ilin yanvar-noyabr ayları ərzində respublikamıza 55 milyon 428 min dollar dəyərində 46 min tondan çox palma yağı idxal edilib. Bu müddət ərzində biz bu məhsulun böyük hissəsini İndoneziyadan (34,8 milyon dollar məbləğində 29,953 min ton) və Malaziyadan (20,5 milyon dollar məbləğində 16,132 min ton) idxal etmişik.***

Qeyd etmək lazımdır ki, palma yağı ən ucuz yağ növlərindən biridir, ona görə də müxtəlif qida məhsulları istehsalçıları uzun müddətdir ki, ondan xammal kimi fəal şəkildə istifadə edirlər. Deməli olar ki, bütün növ yağların dünya bazarında bahalaşması ondan daha da tez-tez istifadə olunacağı anlamına gəlir. Düzdür, ötən il palma yağının qiymətləri də xeyli artıb. Bu, onun əsas istehsalçıları və tədarükçüləri olan İndoneziya və Malaziyanın pandemiya səbəbindən işçi qüvvəsi çatışmazlığı və nəticədə istehsalın azalması ilə üzləşməsindən qaynaqlanır. Bundan əlavə, əsas istehlakçılar - Çin və Hindistan palma yağına tələbatı artırıb.

Ölkəmizdə çoxları tərkibində palma yağı olan məhsullardan qorxur, bəziləri isə onu təhlükəsiz hesab edir. Bu fikir ayrılığı onun haqqında ziddiyyətli məlumatlarla əlaqələndirilir. Beləliklə, bir araşdırmaya görə, bərkimiş palma yağının yenidən qızdırılması onu təhlükəli edir və bitki yağının antioksidan xüsusiyyətlərinin azalması səbəbindən damarlarda çöküntülərin yaranmasına səbəb olur. Ancaq palma yağının faydalarından bəhs edən araşdırmalar da var.



Qablaşdırmada nə yazıldığını anlamaq çox vaxt çətindir, çünki hərflər kiçikdir və istehsalçılar istehlakçını qorxutmamaq üçün palma yağından istifadə etdikləri barədə tez-tez susmağa üstünlük verirlər.

Bəzi ekspertlər isə bildirirlər ki, palma yağı iki növdür - yeyinti sənayesi və qeyri-ərzaq məqsədləri üçün, yəni texniki. Birincisi hər yerdə qida məhsullarında, hətta uşaq qidası istehsalında, o cümlədən Avropa ölkələrində istifadə olunur. Oda bildirilir ki, əvvəllər istehsalda başqa növ yağlardan istifadə olunurdusa, indi palma yağından daha çox istifadə olunur, çünki daha ucuzdur və buna görə də onun istifadəsinin həcmi artır. İddia edilir ki, palma yağının da GMO kimi zərərli olduğunu hələ heç kim sübut etməyib.

Müəyyən ekspertlər həm də o qənaətdədirlər ki, hər şey icazə verilən konsentrasiya daxilində qida kimi istifadə edilə, yeyilə bilər.Konkret palma yağına gəldikdə isə yeganə sual bu məhsulun azərbaycanlılara nə dərəcədə tanış, yəni bağırsaqlarımızın mikroflorasına nə dərəcədə uyğun olmasıdır.

Belə ki, bir neçə il öncə Ümumdünya Səhiyyə Təşkilatı və BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı (FAO) palma yağından istifadənin zərərləri ilə əlaqədar xəbərdarlıq edib. Doğrudur, palma yağının A, E, D vitaminləri ilə zəngin olduğunu da deyirlər. Onun tərkibində olan lütein görmə qabiliyyətini yaxşılaşdırır, eyni zamanda beynin inkişafına da yaxşı təsir göstərir. Lakin bu müsbət tərəfləri ilə yanaşı, zərərli cəhətləri də kifayət qədərdir. Aparılan təcrübə zamanı müəyyən edilib ki, palma yağı ilə qızdırılmış qida ilə yemlənən siçanlarda altı ay ərzində ürək xəstəliklərinin əlamətləri müşahidə olunur.

Ümumdünya Səhiyyə Təşkilatının mütəxəssisləri hesab edirlər ki, palma yağından istifadə piylənmə və xroniki xəstəliklərin inkişafına səbəb olur. Ekspertlərin apardığı təhlillər zamanı məlum olub ki, dünyanın 23 ölkəsində palma yağının istehlakı ilə işemik ürək xəstəliklərinin artması arasında əlaqə var.

Həkimlərin dediyinə görə, palma yağı orqanizmdə tam sorulmur, toxumalarda toplanır və bu, metabolik pozğunluq yaradır. Onun piylənmə vermədiyi və çəki azaltdığı barədə deyilənlər həqiqətəuyğun deyil. Təcrübə göstərir ki, əksinə, ondan istifadə çəki artımına səbəb olur. Çəkinin artması isə bir sıra xəstəliklərin yaranmasının başlanğıcıdır.

Beləliklə, dünyada olduğu kimi, Azərbaycanda da palma yağına tələbat, onun idxalı ilbəil artır. Bunun fonunda isə sözügedən yağla bağlı mübahisələr də qızışır. Palma yağının zərərli olduğunu deyənlərlə əksini düşünənlərin öz fikirlərini necə arqumentləşdirməsindən asılı olmayaraq bu mübahisələrin hələ uzun müddət davam edəcəyini təxmin etmək mümkündür.

***Toğrul Əliyev***

# İşğaldan azad olunmuş ərazilərə “Böyük Qayıdış”

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

## İşğaldan azad olunmuş ərazilərdə məşğulluq əsas vakansiyalar kənd təsərrüfatı üzrə yaranacaq



***Azərbaycan 30 ilə yaxın işğalda olan torpaqlarını azad etdikdən sonra azad edilmiş ərazilərə qayıdışı təmin etmək üçün məşğulluq istiqamətində tədbirlər planı hazırlamağa başlayıb. Belə ki, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin 2022-ci il üçün iş planı təsdiq olunub. İşğaldan azad olunmuş ərazilərdə məşğulluq strategiyası hazırlanacaq və məcburi köçkünlərin repatriasiya prosesi həyata keçiriləcək.***

Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsindən verilən məlumata görə, Azərbaycan Respublikası Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsində Kollegiya iclası keçirilib. Kollegiya iclasında komitənin mərkəzi aparatının, departamentlərin və tabe təşkilatların 2021-ci ilin yekunlarına dair hesabatları müzakirə edilib. Böyük Qayıdışla bağlı beynəlxalq ictimaiyyətin məlumatlandırılması, mətbuatda işıqlandırılması, məcburi köçkünlərin könüllü şəkildə geri qayıdışının hazırlanması, təbliğat işinin aparılması, xüsusi karantin rejiminin tələbləri nəzərə alınmaqla məcburi köçkünlərin onlayn qəbulu, onların müraciətlərinə baxılması, komitə rəhbərliyinin və aidiyyəti şöbə müdirlərinin qəbullarının təşkili, kadr siyasətinin “Dövlət qulluğu haqqında” Qanununa uyğun aparılması haqqında məruzələr dinlənilib. Kollegiyanın 2022-ci il üçün iş planı təsdiq olunub. Bundan başqa, işğaldan azad olunmuş ərazilərdə məşğulluq strategiyasının hazırlanması və məcburi köçkünlərin repatriasiya prosesinin həyata keçirilməsi məsələləri müzakirə olunub.

Bəs görəsən işğaldan azad edilmiş ərazilərdə məşğulluq tədbirləri planına nələr aiddir?

Dövlət Məşğulluq Agentliyindən sorğumuza cavabda bildirildi ki, hazırda işğaldan azad olunmuş ərazilərdə məşğulluqla bağlı plan üzərində iş aparılır. Bu işlər başa çatdırıldıqdan sonra ictimaiyyətə geniş açıqlama veriləcək. Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsindən də işğaldan azad olunmuş ərazilərdə məşğulluqla bağlı tədbirlər planının hələki hazırlandığını bildirdilər.

Qeyd edək ki, işğaldan azad olunmuş ərazilərdə məşğulluq planı ictimaiyyətə açıqlanmasa da, artıq məşğulluq altsistemindəki vakansiya bankında işğaldan azad olunan Şuşa, Laçın, Zəngilan, Cəbrayıl rayonları üzrə aktiv vakansiya və iş imkanları mövcuddur. Cəbrayıl rayonunda poçtalyon işi üçün 250 manat, poçt üzrə əməliyyatçı üçün 255 manat, kargüzar üçün 260 manat, dərzi və dizayner üçün 500 manat, Laçın rayonunda yük avtomobili sürücüsü üçün 350 manat, ekskavator operatoru üçün 650 manat, Şuşada fəhlə üçün 350, usta işi üçün 300 manat, Zəngilanda topoqraf köməkçisi üçün 350 manat, anbardar və gözətçi-mühafizə işi üçün 420 manat, anbardar-təchizatçı üçün 450 manat, baş gözətçi-mühafizəçi üçün 500 manat, elektrik mühəndisi üçün 650 manat, sahə rəisi üçün 1700 manat əmək haqqı nəzərdə tutulub. İnternetə çıxışı olmayan vətəndaşlar öz əraziləri üzrə məşğulluq filiallarına yaxınlaşaraq vakansiyalar barədə məlumat əldə edə bilərlər.

Ekspertlər də bildirir ki, hazırda işğaldan azad olunmuş ərazilərdə əsas işlər inşaatla bağlı olsa da, gələcəkdə bu bütün məşğulluq sahəsini əhatə edəcək.

İqtisadçı Əli Əlirzayev deyir ki, işğaldan azad olunmuş ərazilərdə ilkin olaraq əsas məşğulluq sahələri kənd təsərrüfatı ilə bağlı olacaq. Çünki, o, işğaldan azad olunmuş ərazilərdə kənd təsərrüfatı sahəsinin inkişafına daha çox potensial olduğunu söyləyir. Onun sözlərinə görə, kənd təsərrüfatı istehsal sahələri üzrə də həmin ərazilərdə ixtisaslı kadr və işçi kütləsinə ehtiyac yaranacaq. İşğaldan azad olunmuş ərazilərdə tam məskunlaşma olduqdan sonra isə, bütün sahələr üzrə iş yerləri açılacaq: “Hazırda işğaldan azad olunmuş ərazilərdə tikinti-quruculuq işləri aparılır. Məşğulluqla bağlı əsas tələbat inşaat sahəsində çalışan mütəxəssislərə, mühəndislərə, memarlara, bərpa işləri ilə bağlı yük avtomobili sürücülərinədir. Düşünürəm ki, növbəti mərhələdə kənd təsərrüfatı mütəxəssisləri buraya cəlb ediləcəklər. Hazırda daha çox inşaat sektorunda çalışanlara və infrastruktur sahəsi üzrə mütəxəssislərə ehtiyac var”.

Xatırladaq ki, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin onlayn “Sosial saat” verilişində Dövlət Məşğulluq Agentliyinin sədri Mustafa Abbasbəyli məsələ ilə bağlı açıqlama vermişdi. O, bildirmişdi ki, işğaldan azad olunmuş ərazilərdə məşğulluqla bağlı Dövlət Məşğulluq Agentliyinin tərkibində işçi qrup yaradılıb. Eyni zamanda işçi qrup çərçivəsində tədbirlər planı təsdiq olunub. Onun sözlərinə görə, tədbirlər planı çərçivəsində işğaldan azad olunmuş, eyni zamanda sərhədyanı ərazilərlə bağlı, həmçinin düşmən terrorundan əziyyət çəkən Gəncə, Bərdə və Tərtər şəhərləri üzrə xüsusi layihələr həyata keçiriləcək: “Tədbirlər planı çərçivəsində özünüməşğulluq tədbiri, ictimai işlərin təşkili, eyni zamanda kvota üzrə iş yerlərinin yaradılması və digər aktiv məşğulluq tədbirlərinin böyük hissəsinin məhz bu regionlara yönləndirilməsi nəzərdə tutulub. Həmin ərazilərdə bütün təmizlənmə və hazırlıq işləri görüləndən sonra biz bu tədbirlərə başlaya biləcəyik”.

***Gülayə Mecid***

Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin ayırdığı maliyyə əsasında hazırlanır.

## Bu ailələr “buster” dozanı mütləq vurdurmalıdır - Həkim




***Fevraldan 15-dən etibarən 3-cü doza vaksin vurdurmayan şəxslər bir çox məkana buraxılmır. Ancaq buna baxmayaraq, hələ də vaksin vurdurmaq istəməyən, yayınan insanlar var. Səbəb olaraq isə “buster” dozadan ehtiyat etdiklərini və ya buna ehtiyac duymadıqlarını deyirlər.***

İnfeksionist Mərdan Əliyev Bakıvaxtı.az-a bildirib ki, şəxslər 1-ci və 2-ci doza vaksin olunublarsa, son 6 ay ərzində virusa yoluxmayıblarsa, “buster” dozanı vurdurmalıdırlar. Həkimin sözlərinə görə, xüsusən də, ailədə yanaşı xəstəliyi olan və yaşlı adamlar varsa, bu ailənin üzvləri mütləq “buster” dozanı vurdurmalıdır.

M.Əliyev vurğulayıb ki, ailədə kimsə yoluxubsa, risk qrupuna daxil olan şəxsi də yoluxdura bilər: “Bu, onun üçün ölümcül ola bilər”.

## Dövlətə xəyanətdə təqsirləndirilən jurnalistlə bağlı məhkəmə qərarı



***Dövlət Təhlükəsizlik Xidmətinin (DTX) həbs etdiyi xeberman.com saytının redaktoru Polad Aslanovun kassasiya şikayətinə baxılıb.***

Ali Məhkəmədə keçirilən prosesdə qərar elan edilib. Qərara əsasən, P. Aslanovun cəzası 16 ildən 13 ilə endirib.

Qeyd edək ki, Polad Aslanov Cinayət Məcəlləsinin 274-cü (dövlətə xəyanət) və 134-cü (öldürməklə və ya sağlamlığa ağır zərər vurmaqla hədələmə) maddələri ilə ittiham olunur.

DTX-nın yaydığı rəsmi açıqlamada qeyd olunub ki, P.Aslanov xarici xüsusi xidmət orqanlarının əməkdaşları ilə respublikadan kənarda məxfi görüşlər keçirib, aldığı pula görə, qəbzləri imzalayıb. Açıqlamada onun xarici xüsusi xidmət orqanlarının əməkdaşlarından aldığı tapşırıqlar əsasında Azərbaycanın dövlət təhlükəsizliyi və müdafiə qabiliyyəti zərərinə istifadə etməkdən ötrü topladığı məlumatları həmin orqanlara ötürdüyü bildirilir.

Bundan başqa Polad Aslanov Azərbaycanda olan bəzi jurnalistləri də xarici xüsusi xidmət orqanları ilə əməkdaşlığa cəlb etməkdə təqsirləndirilir.

Bundan başqa əməkdaşlığa cəlb etmək istədiyi jurnalistlərdən biri bununla razılaşmadığı üçün Polad Aslanov hədələyib. Buna görə də ona qarşı Cinayət Məcəlləsinin 134-cü (Öldürməklə və ya sağlamlığa ağır zərər vurmaqla hədələmə, hədənin icra ediləcəyi üçün real əsaslar olduqda) maddəsi ilə də təqsirləndirilir.

P.Aslanov Bakı Ağır Cinayətlər Məhkəməsinin hökmü ilə 16 il azadlıqdan məhrum edilib.

## Yevlaxda avtomobil aşdı



***Yevlaxda idarəetmədən çıxan maşın aşıb.***

Hadisə şəhərin Əkşəm-Hacıselli kəndləri istiqamərindən keçən magistral yolda baş verib.

Belə ki, idarəetmədən çıxan ”Mercedes” markalı minik maşını yol kənarına aşıb. Qəza zamanı avromobil yarasız hala düşüb. Xoşbəxtlikdən Mingəçevir şəhər sakini olan sürücü xəsarət almayıb.

Faktla bağlı araşdırma aparılır.

# Dumanlı hava nə vaxtadək davam edəcək?



***Gözlənildiyi kimi hazırda ölkə ərazisində müşahidə olunan dumanlı hava şəraiti inversiya xarakterlidir. Soyuq hava kütləsinin isti havanı sıxışdıraraq yuxarı qaldırması nəticəsində yerüstü təbəqədə temperatur yuxarı təbəqəyə nisbətən aşağı olub, nəticədə inversiya qatı yaranıb.***

"Unikal" xəbər verir ki, bunu Milli Hidrometeorologiya Xidmətinin rəisi Umayra Tağıyeva bildirib.

Onun sözlərinə görə, gecə saatlarında yer səthi tədricən soyuyur ki, bu da havanın aşağı qatlarının da soyumasına gətirib çıxarır. Nəticədə nisbətən isti və soyuq hava kütlələrinin qarşılaşması dumanın yaranması üçün əlverişli şərait yaradır. Adətən dumanın yaranması inversiya ilə izah olunur.

"Dumanlı hava şəraiti ilə əlaqədar Bakıda və Abşeron yarımadasında meteoroloji görünüş məsafəsi 200 metrədək, rayonlarda isə 50 metrədək məhdudlaşıb".

Xidmət rəisi bildirib ki, ölkə ərazisində dumanlı hava şəraiti fevralın 26-sı səhərədək davam edəcək. Magistral avtomobil yollarının bəzi hissələrində duman ilə əlaqədar görünüş məsafəsi 100-500 metrədək məhdudlaşacaq.

# FHN 6 nəfəri xilas etdi

***Fövqəladə Hallar Nazirliyinin "112" qaynar telefon xəttinə daxil olmuş zənglər əsasında Nazirliyin aidiyyəti qurumları tərəfindən ötən sutka ərzində 42 yanğına çıxış və 3 köməksiz vəziyyətdə qalma faktı üzrə qəza-xilasetmə əməliyyatları həyata keçirilib.***

Nazirlikdən verilən məlumata görə, görülmüş təcili və təxirəsalınmaz tədbirlər nəticəsində yanğınların operativ söndürülməsi, insanların həyatının xilas olunması təmin edilib.

Ümumilikdə, FHN-in qüvvələri tərəfindən ötən sutka ərzində 6 nəfər xilas edilib.

# Müddətli müqavilə ilə işləyən müəllimlərin müsabiqəsi başladı

***2021-2022-ci tədris ili üzrə müəllimlərin işə qəbulu müsabiqəsində müddətli müqavilə əsasında işə qəbul olunmuş namizədlərlə müddətsiz əmək müqaviləsinin bağlanılması məqsədilə daimiləşmə müsabiqəsinə başlanılır.***

Bu barədə "Unikal"a Təhsil Nazirliyindən məlumat verilib. Bildirilib ki, müsabiqədə iştirak üçün elektron sənəd qəbulu martın 1-dən 7-dək keçiriləcək. Namizədlər martın 1-dən etibarən www.miq.edu.az müqavilə saytına daxil olaraq daimiləşmə müsabiqəsində iştirak etmək üçün qeydiyyatdan keçə bilərlər. Qeydiyyat üçün son tarix martın 7-si saat 23:59-dək nəzərdə tutulub.

Qeyd edək ki, cari tədris ili üzrə daimiləşmə müsabiqəsi ənənəvi formatda həyata keçiriləcək. Namizədlərin daxil etdiyi məlumatlar yoxlanıldıqdan sonra müsahibənin keçiriləcəyi tarix, saat və məkan barədə məlumat şəxsi səhifələrə göndəriləcək.

Daimiləşmə müsabiqəsində cari tədris ili üzrə keçirilmiş müəllimlərin işə qəbulu müsabiqəsində zəruri keçid balını toplayan, pedaqoji istiqamətlər üzrə orta ixtisas və ya ali təhsil almış, yanvarın 31-dək müvafiq vakant yerlərə müddətli əmək müqaviləsi ilə işə qəbul edilmiş şəxslər iştirak edə bilərlər.

Eyni zamanda, mövcud qaydalara görə, daimiləşmə müsabiqəsində uğur qazanan şəxslərin üç tədris ili ərzində keçiriləcək müəllimlərin işə qəbulu və yerdəyişməsi müsabiqəsində iştirakı təmin olunmayacaq.

# Ölkənin şimal-qərb qapısında suvarma mövsümünə hazırlıq gedir

***Dağ çaylarında selə qarşı mübarizə tədbirləri görülür. Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin mətbuat Dilqəm Şərifov bildirib ki, Balakən Suvarma Sistemləri İdarəsi kənd təsərrüfatı bitkilərinin fasiləsiz suvarma suyu ilə təminatının yaxşılaşdırılması istiqamətində daim mühüm işlər həyata keçirir.***



İdarənin xidməti sahəsində 6823 hektar suvarılan torpaq sahəsi var. Bundan 2230 hektar əkin sahəsi, 3778 hektarı həyətyanı sahə və 2392 hektarı çoxillik əkinlərdir. Suvarma dağ çaylarından gələn suların hesabına aparılmaqla, əsasən öz axını ilə həyata keçirilir. Bundan əlavə olaraq suvarmanın aparılması üçün artezian və subartezian quyularından da istifadə olunur. Suvarma suyu çaylardan suvarma kanallarına texnikaların köməyi ilə verilir. Bu məqsədlə rayonda 210 kilometrə yaxın suvarma kanalları fəaliyyət göstərir. Ondan 40 km təsərrüfat arası kanallar, 170 kilometrə yaxını isə təsərrüfat daxili kanallardır. Ötən il suvarmaya hazırlıqla əlaqədar kanallarda 312 min kub metr həcmində təmizləmə işləri aparılıb. Hazırda başlanğıcını Balakən çaydan götürən və 4 kəndin ərazisində 1800 ha əkin sahəsinin suvarılması üçün istifadə olunan Gers kanalında təmizləmə işləri görülür. Gers kanalı suvarmada istifadə olunmaqla yanaşı dağlardan gələn sel sularının ötürülməsinə də xidmət edir. Bundan başqa su itkisinin qarşısının alınması məqsədilə rayon ərazisindən keçən və bu vaxta qədər torpaq məcralı olan Balakən-2 suvarma kanalı beton üzlüyə alınıb.

Balakən-2 suvarma kanalının beton üzlüyə alınması ilə ətrafda yerləşən əkin sahələrinin də suvarılması daha da yaxşılaşdırılıb. Fermerlərin sözlərinə görə, yeni beton kanalla verilən su artıq itkiyə getmir.

Respublikanın sıx çay şəbəkələrinə malik bölgələrindən biri hesab olunan Balakəndə Mazım çay, Katex çay, Balakən çay, Himbul çay, İnter çay və sair dağ çayları mövcuddur. Mövsümlə əlaqədar olaraq, əsasən də yaz və payız aylarında həmin çaylar daşaraq ətrafdakı kəndlərə, əkin sahələrinə böyük təhlükələr yaradır. Suvarma Sistemləri İdarəsinin həyata keçirdiyi tədbirlərdən biri də həmin çaylardakı daşqınların törədəcəyi təhlükələrin yarada biləcəyi fəsadların qarşısını almaq məqsədi ilə məcra təmizləmə və sahil bərkitmə işləri aparmaqdan ibarətdir. Yaşayış məntəqələrinin və əkin sahələrinin mühafizəsi məqsədilə idarənin balansında olan bəndlərdən 11911 metr Balakənçay sistemində, 4480 m Katexçay sistemində, 6437 m isə Mazımçay sistemindədir. Ötən ilin 12 ayı ərzində daş-beton bəndlərdə rayonun Mahamalar kəndinin müdafiəsi üçün 900 kub metr həcmində, şəhər ərazisinin mühafizəsi üçün 824 kub metr həcmində cari təmir işləri, Katex kəndinin mühafizəsi üçün isə 2000 kub metr həcmində əsaslı təmir işləri və 458 kub metr həcmində cari təmir işləri aparılıb.

Qeyd edək ki, hər il olduğu kimi ötən 2021-ci il ərzində də ayrı-ayrı çaylarda məcra tənzimləmə işlərinin görülməsi idarə tərəfindən həyata keçirilib. Belə ki, texnikaların köməyi ilə ümumilikdə 1060 min kub metr tənzimləmə işləri görülüb. Həmin tədbirlərin görülməsi nəticəsində kənd təsərrüfatına yararlı torpaqların təyinatı üzrə istifadə edilməsi, əkin işlərinin aparılması təmin edilib.

# Buraxılış imtahanlarının tarixi açıqlandı

***Məlum olduğu kimi, martın 5-də Bakı şəhərinin Qaradağ, Xəzər, Yasamal, Nərimanov rayonlarında, həmçinin Gəncə (Kəpəz), Qazax, Qax, Balakən, Yevlax, Ağdam, Göyçay, Ağdaş, Lənkəran, İmişli, Şirvan, Qusar, Biləsuvar rayonlarında, martın 6-da isə Bakı şəhərinin Nizami, Suraxanı, Binəqədi rayonlarında, həmçinin Sumqayıt, Gəncə (Nizami), Ağstafa, Oğuz, Zaqatala, Beyləqan, Füzuli, Kürdəmir, Ucar, Cəlilabad, Saatlı, Neftçala, Şabran, Siyəzən, Xızı rayonlarında Dövlət İmtahan Mərkəzi tərəfindən tam (11 illik) orta təhsil səviyyəsi üzrə buraxılış imtahanı keçiriləcək.***



Qurumdan "Unikal"a bildirilib ki, martın 5-də tədrisi gürcü, 6-da isə ingilis və fransız dilində olan məktəblərin şagirdləri də imtahan verirlər.

Buraxılış imtahanında iştirak edəcək şagirdlər https://www.e-gov.az/az/services/read/2516/0?tqdk_xdm=56 linkindən istifadə etməklə özlərinin imtahana buraxılış vərəqəsini, təhsil müəssisələri isə bütün şagirdlərin imtahana buraxılış vərəqələrini çap edə bilərlər. Şagirdlər iş nömrəsini buradan öyrənə bilərlər.

Şagirdlər buraxılış vərəqəsi ilə bir yerdə "İmtahan iştirakçısının sağlamlığı haqqında bəyannamə"ni də çap edirlər. Bəyannamə ayrıca vərəqdə çap edilməlidir və imtahan günü şagird tərəfindən imzalanmaqla imtahan nəzarətçisinə təqdim edilməlidir.

Buraxılış vərəqəsini çap etmək üçün kompüterə Adobe Reader proqramı quraşdırılmalıdır və brauzerin "Pop-up blocked" sahəsindən qeyd işarəsi götürülməlidir. Şəxsiyyəti təsdiq edən sənədində şəkli olmayan şagirdlər buraxılış imtahanı üçün təhsil müəssisəsi tərəfindən verilməli olan arayışı DİM-in saytından yükləyə bilərlər.

Qeyd edilib ki, şagirdlər bitirdikləri məktəbin yerləşdiyi yerə uyğun rayonda (şəhərdə) imtahan verirlər. Məcburi köçkün rayonlarının məktəblərində təhsil alan şagirdlər bitirdikləri təhsil müəssisəsinin yerləşdiyi şəhər və rayonların imtahan gününə uyğun tarixdə imtahan verirlər. Peşə liseylərinin şagirdləri həmin liseyin yerləşdiyi şəhər və rayonların imtahan gününə uyğun tarixdə imtahan verirlər.

## ELAN

**Fərzəliyeva Zənfira Əlibala qızının adına olan Bakı şəhəri Nəsimi rayonu Əlisgəndər İsgəndərov küçəsi ev 1a 17 saylı mənzilin çıxarışı itdiyi üçün etibarsız sayılır.**

# Erməni vandalizminin Xocalı izləri

***Azərbaycan xalqı son 200 il ərzində zaman-zaman ermənilərin etnik təmizləmə, soyqırım siyasətinin qurbanına çevrilmişdir. Müxtəlif dövrlərdə və ictimai-siyasi şərtlər daxilində bütün faciələrə təkan verən əsas amillərdən biri və bəlkə də birincisi ermənilərin Azərbaycana qarşı ərazi iddiaları və bu iddiaların həmin dövrün müəyyən güclərinin dəstəyi sayəsində müxtəlif vasitələrlə həyata keçirilməsi olmuşdur. 44 günlük Vətən müharibəsindən sonra xalqımızın illərdir həsrətlə gözlədiyi Qarabağ nəhayət öz əzəli sahiblərinə qayıtdı. Bu illər əvvəl torpaqlarımızın düşmən tərəfindən işğalı zamanı ailəsini, yaxınlarını itirən şəxslərin az da olsa təsəlli oldu. Bu il Xocalı soyqırımından 30 il ötür. Bu dəfə həmin günü qalib xalq kimi qeyd edirik. Xocalıda yüzlərlə insan qətlə yetirilib.***

1813-cü il "Gülüstan" və 1828-ci il "Türkmənçay" müqavilələrindən sonra Rusiyaya birləşdirilən Azərbaycan torpaqlarının zəbt edilməsinə və azərbaycanlıların bu torpaqlardan deportasiyasına hesablanmış ümumerməni proqramının həyata keçirilməsi prosesi məhz bu tarixi müqavilələrdən sonra başlamışdır. XX yüzillikdə ermənilərin Osmanlı İmperatorluğuna və Azərbaycan türklərinə məxsus olan torpaqlara qarşı ərazi iddiaları irəli sürməsi qanlı toqquşmalara səbəb olub. Bu torpaqların onlara məxsusluğunu iddia edən ermənilər əslində "Dənizdən-dənizə böyük Ermənistan" planını həyata keçirmək istəyirdilər. Bu amili nəzərdə tutan görkəmli edib Ömər Faiq Nemanzadə hələ 1905-ci ildə "İrşad" qəzetində yazırdı: "Ermənilər öz planlarını həyata keçirmək üçün bizi İrəvandan, Qarabağdan və Qarsdan qovmağa çalışacaqlar. Biz biməliyik ki, ermənilər bu yolda hər bir alçaqlığa əl ata bilərlər. Onlar qəsdən müsəlmanları öz üzərlərinə qaldıracaq, onların hücumuna və özlərinin bir qədər artıq itkisinə şərait yaradacaq və beləliklə bütün Avropanın diqqətini əzabkeş bir xalq olmalarına cəlb edəcəklər. Onlar öz cinayətləri üçün tədricən planlar hazırlayır və onları həyata keçirməyə yollar axtarırlar". Ölkəmizə qarşı əsassız ərazi iddiaları ilə çıxış edən ermənilər tarixin müxtəlif illərində, 1905, 1906, 1917-ci illərdə, daha sonra isə bolşevik bayrağı altında 1918-ci ilin mart ayında erməni millətçiləri Bakıda, Tiflisdə, İrəvanda, Naxçıvanda, Qubada, Lənkəranda, Şamaxıda və Azərbaycanın digər yaşayış məntəqələrində azərbaycanlılara qarşı açıq şəkildə həyata keçirilmiş genişmiqyaslı qanlı aksiyalar zamanı minlərlə uşaq, qadın, qoca yalnız milli mənsubiyyətinə görə misilsiz qəddarlıqla qətlə yetirilib, yüzlərlə yaşayış məntəqəsi dağıdılıb, evlər talan edilib, yandırılıb. Tarixin bütün mərhələlərində ermənilər tərəfindən törədilmiş bu cinayətlər kütləvi qırğınlarla müşayiət olunmuşdur. 1948-1953-cü illərdə Ermənistandan gətirilmiş 150 min nəfər Kür-Araz düzənliyində yerləşdirilmişdir. 1988-ci il isə bizə bir daha sübut etdi ki, düşmən elə düşməndir. Həmin ildən başlamış Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi tarixində ən qanlı, tükürpədici hadisələrdən biri isə Xocalıda baş vermişdir. Xocalı 1991-ci ilin oktyabrından blokadada idi. Oktyabrın 30-da avtomobil əlaqəsi kəsilmiş və yeganə nəqliyyat vasitəsi vertolyot qalmışdı. Şuşa şəhərinin səmasında mülki vertolyotun vurulması və nəticədə 40 nəfərin həlakından sonra isə bu əlaqə də kəsilmişdi. 1992-ci il yanvarın 2-dən şəhərə elektrik verilmirdi. Şəhərin müdafiəsi əsasən atıcı silahlarla silahlanmış yerli özünümüdafiə dəstəsi, milis və Milli Ordunun döyüşçülərindən təşkil olunmuşdu. Ermənistan tərəfindən Azərbaycanın digər yaşayış məntəqələrində, o cümlədən Cəmilli, Meşəli, Kərkicahan, Malıbəyli və Quşçular kəndlərində törədilmiş kütləvi qırğınlar Xocalının mühasirəsinə imkan yaratmaq




məqsədinə xidmət etmişdir. Fevralın 12-də erməni silahlı dəstələri tərəfindən Şuşanın Malıbəyli və Quşçular kəndləri qarət edilmiş və yandırılmışdır, təkcə Malıbəylidə 50 nəfər öldürülmüşdür. Həmin günlərdə Azərbaycan qüvvələri sakinlərin köməyinə çata bilmədi, hətta meyitlərin götürülməsi belə mümkün olmadı. Bu zaman isə ermənilər vertolyotlarla, ağ geyimdə xüsusi qruplarla meşələrdə gizlənmiş insanların axtarışını aparır, aşkar edilənləri əsir götürür, işgəncələrə məruz qoyurdular. Xocalıya hücuma hazırlıq fevralın 25-də axşam keçmiş SSRİ-nin 366-cı motoatıcı alayın hərbi texnikasının döyüş mövqelərinə çıxması ilə başlamışdı. Şəhərə hücum toplardan, tanklardan, "Alazan" tipli zenit toplardan 2 saatlıq atəşdən sonra başlandı. Xocalıya üç istiqamətdən hücum aparıldığından əhali Əsgəran istiqamətində qaçmağa məcbur olmuşdu. Naxçevanik kəndi yaxınlığında əhalinin qarşısı erməni silahlı dəstələri tərəfindən kəsilmiş və onlar güllləborana tutulmuşlar. Qarlı aşırımlarda və meşələrdə zəifləmiş, taqətdən düşmüş insanların çox hissəsi məhz Əskəran-Naxçevanik düzündə erməni silahlı dəstələri tərəfindən xüsusi qəddarlıqla məhv edilmişdir.

Bu müdhiş faciənin ildönümü ölkəmizdə olduğu kimi, hər il dünyanın müxtəlif dövlətlərində yaşayan soydaşlarımız və dost xalqların nümayəndələri tərəfindən də yad edilir. Bəşər tarixində ən dəhşətli faciələri belə kölgədə qoyan Xocalı soyqırımı xalqımızın ürəyinə vurulan, heç zaman sağalmayan, zaman-zaman dərinləşən, dövr edən yaradır. Xocalıda axıdılan göz yaşları hələ də qurumaq bilmir. Bu göz yaşları hamımızın içini göynədir, qəlbimizi yandırır. Biz bu qanlı tarixi heç vaxt unutmayacağıq. Təcavüzkar erməni millətçiliyinə qarşı dövlət səviyyəsində mütəşəkkil müqavimət Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev hakimiyyətə qayıtdıqdan sonra quruldu. Ümummilli liderimizin "Xocalı soyqırımı qurbanlarının xatirəsinə sükut dəqiqəsi elan edilməsi haqqında" 1997-ci il fevralın 25-də imzaladığı sərəncamla hər il fevral ayının 26-sı saat 17:00-da ölkəmizdə Xocalı soyqırımı qurbanlarının xatirəsi bir dəqiqəlik sükutla yad olunur. "Azərbaycanlıların soyqırımı haqqında" ulu öndərin 1998-ci il 26 mart tarixli əhəmiyyətli fərmanı tarixi həqiqətlərin üzə çıxmasına və öz yerini tutmasına təkan verdi.

1992-ci il fevralın 25-dən 26-na keçən gecə erməni hərbi birləşmələri Rusiyanın 366-cı motoatıcı alayının köməyi ilə Xocalı şəhərinə hücum edib. 7 min əhalisi olan Xocalı soyqırımı zamanı bir gecədə 106 qadın və 63 uşaq olmaqla 613 nəfər öldürülüb, o cümlədən 8 ailə tam məhv edilib, 487 nəfər yaralanıb, 1275 qadın, uşaq və qoca girov götürülərək işgəncələrə məruz qalmış (150 nəfər, o cümlədən 68 qadın və 26 uşaq bu günə kimi itkin düşmüş hesab olunur), Xocalı şəhərinin 5379 nəfər əhalisi deportasiyaya məruz qalıb. Bu faciə zamanı 111 nəfər Xocalıda qətlə yetirilib, mühasirədən çıxıb qaçmağa müvəffəq olmuş şəhər sakinlərindən 16 nəfər Kətik meşəsində, 130 nəfər Naxçıvanik yolunda, 23 nəfər Qaraqaya ətrafında, 23 nəfər Dəhraz kəndi yaxınlığında, 8 nəfər Şelli istiqamətində, 6 nəfər Əsgəran asfalt yolunun 86-cı kilometriyində və s. yerlərdə vəhşicəsinə öldürülüb, habelə əsir götürülən Xocalı sakinlərindən 18 nəfəri Əsgəran rayon daxili işlər şöbəsində işgəncə verilərək qətlə yetirilib. Qətlə yetirilən şəxslərdən 192-i əslən Xocalı sakini, 24-ü 1988-ci ildə Ermənistandan, 32-i 1988-1989-cu ildə Xankəndi şəhərindən, 35-i Dağlıq Qarabağın digər yaşayış məntəqələrindən deportasiya olunmuş azərbaycanlılar, 8-i 1989-cu ildə Fərqanə hadisələri zamanı Özbəkistandan köçmüş məshəti türkləri və s. olublar. Onların hamısı azərbaycanlı idi. Qətllər "Human Rights Watch" və "Memorial" insan haqları təşkilatları tərəfindən də sənədləşdirilmişdir. Hadisə yerinə gələn beynəlxalq Kütləvi İnformasiya Vasitələrinin nümayəndələri isə gördüklərindən dəhşətə gəlmişlər. XX əsrin ən qorxunc faciələrindən biri yaşanmışdı. Xocalıda baş verənlər dünya tarixində dinc əhalinin kütləvi qətliamı kimi dərin iz qoymuş Xatın, Holokost, Sonqmi, Lidiçe, Babi Yar, Ruanda və Serebrenitsa kimi soyqırımlarından heç nə ilə fərqlənmirdi. Son 30 ildə soyqırımın beynəlxalq miqyasda öz ədalətli hüquqi qiymətini alması istiqamətində atılan addımlar kimi Heydər Əliyev Fondunun Vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə həyata keçirilən "Xocalıya ədalət" kampaniyasının dünya miqyasında təbliğinin nəticəsidir. İslam Əməkdaşlıq Təşkilatı Parlament İttifaqının, Meksika, Pakistan, Çexiya, Peru, Kolumbiya, Panama, Honduras, Sudan, Qvatemala və Cibuti parlamentlərinin müvafiq sənədlərində Xocalıda törədilmiş kütləvi qətllərin soyqırımı aktı olduğu təsdiq edilib. Rumıniya, Bosniya və Herseqovina, Serbiya, İordaniya, Sloveniya, Şotlandiya parlamentləri, eləcə də Amerika Birləşmiş Ştatlarının 20-dən çox ştatının icra və qanunvericilik orqanı Xocalı faciəsini qətliam kimi qiymətləndirərək qətiyyətlə pisləyib. 11 oktyabr 2020-ci il tarixində ermənilərin Gəncədə törətdikləri terror hadisəsi Azərbaycana xalqına törədilmiş növbəti soyqırımdır - ikinci Xocalıdır. Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə 2008-ci ildə start verilmiş "Xocalıya ədalət!" Beynəlxalq Maarifləndirmə Kampaniyasının məqsədi Xocalı soyqırımı, Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması, Xocalı soyqırımı qurbanlarının xatirəsinin yad edilməsi, xüsusən də gənc nəsil tərəfindən unudulmamasına yönəlib. Xocalı soyqırımını indiyədək dünyanın 16 ölkəsi və ABŞ-ın 24 ştatı, İslam Əməkdaşlıq Təşkilatının 57 ölkəsi tam və ya parlament səviyyəsində qətliam kimi tanıyıb və pisləyib. Hazırda bu proses Azərbaycanın xarici siyasətinin əsas istiqamətlərindən biri kimi müəyyənləşdirilib. Xocalı həqiqətlərinin dünyaya çatdırılması, beynəlxalq aləmdə yayılması, eləcə də bu soyqırıma obyektiv qiymət verilməsi istiqamətində davamlı olaraq addımlar atılır.

Prezident İlham Əliyevin "Mən əminəm ki, gün gələcək Xocalı faciəsini törədən, dinc əhalini məhv edən erməni cinayətkarları məhkəmə qarşısında cavab verəcəklər" sözləri inamımızı artırır. Respublika Hərbi Prokurorluğunun Xüsusi istintaq şöbəsinin rəisi, baş ədliyyə müşaviri Emil Tağıyevin sözlərinə görə:" İşğaldan azad olunan ərazilərdə cənab Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin tapşırığına əsasən, hazırda yerli və beynəlxalq mütəxəssislər tərəfindən dəymiş ziyan yerində hesablanır. Bununla bağlı yaradılmış komissiya öz funksiyasını icra edir. Xocalının işğalı ilə bağlı ermənilər tərəfindən dövlətə və vətəndaşlara ilkin hesablamalara görə, 170 milyon ABŞ dollarından artıq məbləğdə ziyan vurulması müəyyən edilib. Ermənistanın sabiq prezidentləri Robert Köçəryan və Serj Sarqsyan cinayət məcəlləsinin müvafiq maddələri ilə cinayət məsuliyyətinə cəlb edilib və axtarışa veriliblər". 44 günlük Vətən müharibəsi Azərbaycanda formalaşdırılmış milli ideologiyanın, baş qaldırmış milli mənlik şüurunun, dirçəlmiş ənənələrin, möhkəmlənmiş dövlətçiliyin bariz nümunəsidir. Ümummilli lideri Heydər Əliyevin hakimiyyətə ikinci dəfə gəlişi, bütün sahələrdə o cümlədən gənc nəslin yetişdirilməsində müəyyənləşmiş uzaqgörən və sistemli şəkildə yürüdülən siyasət əsasında mümkün oldu. Ümummilli Liderimiz deyirdi:"Hər bir azərbaycanlı öz milli mənsubiyyətinə görə qürur hissi keçirməlidir və biz azərbaycançılığı - Azərbaycanın dilini, mədəniyyətini, milli-mənəvi dəyərlərini, adət-ənənələrini yaşatmalıyıq." Biz Azərbaycan xalqının nümayəndələri olaraq bu reallığı 44 günlük haqq savaşında mənəvi zəngin, azərbaycançılıq ideologiyası möhkəm gənclərin vətən sevgisində şahidi olduq. Prezident İlham Əliyevin 2021-ci ildə şanlı qələbəmizdən sonra Şuşada ilk bayram tonqalını yandırarkən söylədiyi nitqində vurğuladığı kimi:"Vətən müharibəsində bütün nəsillərin nümayəndələri qəhrəmanlıq göstərdi. Lakin etiraf etməliyik ki, onların böyük əksəriyyəti 18-25 yaşlı gənclərdir. Yəni, 2003-cü ildə mənim hakimiyyətə gəlişim vaxtı hələ uşaq olan və hakimiyyətim dövründə formalaşan gənclərdir".

44 günlük Vətən müharibəsi Azərbaycanda formalaşmış milli həmrəyliyin təcəssümü idi. Bu müharibədə Azərbaycan xalqının üzvləri eyni vətənpərvərlik və birlik içində vətənimizin müdafiəsi, torpaqlarımızın düşmən tapdağından azad olması yolunda öz canlarını sipər etdilər. Onlar Şəhidlik zirvəsinə ucaldılar, qazi və qəhrəman oldular. Azərbaycan dövlətinin qanunları və Prezident İlham Əliyevin apardığı siyasət, onun qəbul etdiyi qərarlar bizim üçün ən ali olanıdır. 2020-ci ilin 27 sentyabrında Müzəffər Ali Baş Komandan Cənab İlham Əliyevin "Dəmir yumruq" genişmiqyaslı əməliyyatı ilə başlanan və 44 gün davam edən II Qarabağ müharibəsi zamanı rəşadətli Azərbaycan Ordusunun işğalçı qüvvələri məhv etməsi, torpaqlarımızın azad edilməsi Xocalı faciəsi qurbanlarının da qisasının döyüş meydanında alındığını göstərdi.

***Cəmil Quliyev***
***LDU nəzdində Sosial və Aqrar-Texnoloji Kollecin direktor köməkçisi, tarix üzrə fəlsəfə doktoru***

# Litvada Ukrayna ilə bağlı fövqəladə vəziyyət elan olundu



***Litvada Ukraynadakı vəziyyətlə əlaqədar olaraq fövqəladə vəziyyət elan olunub.***

Litva Prezidenti Gitanas Nauseda bu barədə fərman imzalayıb.

Nauseda ölkə parlamentindən fərmanı təsdiq etməyi xahiş edib.

Ölkə Prezidentinin imzaladığı bu fərman parlamentin növbədənkənar sessiyasında təsdiq ediləcək. Parlamentin sədri Viktoriya Çmilite-Nilsen öz növbəsində, növbədənkənar sessiyanın tez bir zamanda çağırılacağını deyib.

"Bloomberg" agentliyinin məlumatına görə isə, Nauseda bildirib ki, Ukraynanın Avropa İttifaqına daxil olmaq üçün namizəd statusu verilməsini təklif edəcək.

# Zelenski ruslara çağırış etdi

***Rusiyada vicdanını itirməmiş hər kəs Ukrayna ilə müharibəyə etiraz etməlidir.***

"Unikal" xəbər verir ki, bunu Ukrayna Prezidenti Vladimir Zelenski Rusiya vətəndaşlarına müraciətində deyib.

"Rusiya dövləti şər yolu ilə gedir. Ancaq rus xalqından çox şey asılıdır. Bu gün Rusiya vətəndaşları hansı yolu seçəcəyini özləri müəyyən edəcəklər. Rusiyada hələ də vicdanını itirməmiş hər kəsin çıxıb bu müharibəyə, Ukrayna ilə müharibəyə etiraz etmə vaxtıdır", - Zelenski bildirib.

Zelenski, həmçinin, ukraynalıları Rusiyadan olan qohumları və dostları ilə əlaqə saxlamağa və baş verənlər barədə Rusiya televiziyasında göstərilməyən aktual məlumatları onlara çatdırmağa çağırıb.

# Leyen açıqladı: Rusiya bu cür çökdürülür

***Avropa liderlərinin ratifikasiya etməsi üçün böyük və məqsədyönlü sanksiyalar paketini təqdim edəcəyik.***

Bunu Avropa Komissiyasının rəhbəri Ursula fon der Leyen deyib.

"Bu paketlə biz Rusiyanın əsas texnologiyalara və bazarlara çıxışını əngəlləməklə Rusiya iqtisadiyyatının strateji sektorlarını hədəfə alacağıq.

Rusiyanın iqtisadi infrastrukturunu və modernləşmə imkanlarını zəifləddəcəyik. Həmçinin Rusiyanın Avropa Birliyindəki aktivlərini donduracağıq və Rusiya banklarının Avropa maliyyə bazarlarına çıxışını dayandıracağıq", - Leyen bildirib.

# Rusiya bu müharibədə batacaq - Nevzorov

***Hazırda heç kimə və heç nəyə inanmamalıyıq, informasiyanın 65-80%-i feykdir. Heç kimdə dəqiq məlumat yoxdur. Aydındır ki, "Qələbə marşı"nın çalınmasına hələ çox var, çünki məsələ çirkli və uzundur. Yeri gəlmişkən, bu rejim üçün də ölümcüldür.***

Bunu Rusiya Dövlət Dumasının eks-deputatı Aleksandr Nevzorov deyib.

"Ajiotaj üçün xüsusi bir səbəb yoxdur. Adi müharibədir. İlk xüsusiyyətlərdən isə aydındır ki, bu, uzunsürən, bütün müharibələr kimi xaotik və əlaqəsiz müharibə olacaq. Zəmanət verə bilərəm ki, Rusiya bu müharibədə batıb qalacaq, Ukrayna isə yazıq rolunu oynamağa davam edəcək", - o qeyd edib.

# Rusiya niyə Azərbaycanı seçdi? - Moskvada Bakıya maraq artır



***"Prezident İlham Əliyev illər ərzində bildirirdi ki, məhz işğal siyasətinə görə Ermənistanı bilərəkdən regiondan təcrid edirik. Bu təcrid siyasəti 44 günlük Vətən müharibəsinin gedişində də öz sözünü dedi".***

Bunu Milli.Az-a açıqlamasında politoloq Şəbnəm Həsənova deyib. O bildirib ki, Moskva Bəyannaməsi rəsmi Bakının öz maraqları üçün prioritet hesab etdiyi heç bir məsələdə prinsipial mövqe nümayiş etdirməsi yolunda əngəl deyil:

"Ermənistan tərəfi bir çox amillərdən istifadə etməklə hər vəchlə Rusiyanı öz tərəfinə çəkmək istəsə də Azərbaycan Prezidentinin yürütdüyü praqmatik və düşünülmüş siyasət buna imkan vermədi. Daha rəvan dillə desək, Ermənistanın əl-qolunu tamamilə bağladıq.

Paralel olaraq, Rusiya Federasiyasının Prezidenti Vladimir Putin bir neçə dəfə bəyan etdi ki, hərbi əməliyyatlar Azərbaycanın beynəlxalq aləm tərəfindən tanınmış ərazilərində gedir. Məhz bu açıqlamanın özü Azərbaycanın torpaqlarını azad etmək yolunda işinə mühüm təkan və dəstək oldu. Hazırda da "Azərbaycan Respublikası və Rusiya Federasiyası arasında qarşılıqlı müttəfiqlik fəaliyyəti haqqında" imzalanan Bəyannamədə Azərbaycanın toxunulmazlığına, ərazi bütövlüyünə, suverenliyinə, müstəqil siyasətinə əlavə təminat verilir, yəni Rusiya bir daha üzərinə öhdəlik götürür. Bizim bütün bu məsələlərə zəmanət almağımız böyük uğurdur.

Eyni zamanda, Bəyannamədə həm 10 noyabr, həm 11 yanvar, həm də 26 noyabr tarixli üçtərəfli görüşün nəticələrinə əsasən imzalanmış tarixi bəyanatların müddəalarının realizə edilməsi istiqamətində səylərə bundan sonra da hər cür dəstək verilməsi məsələsi özünü ehtiva edir ki, bizə də lazım olan məsələlərdən biri, hətta deyərdim birincisi budur ki, bəzi yarımçıq qalan işlərimizi yekunlaşdıraq. Düşünürəm ki, sözügedən bəyanatda beynəlxalq terrorçuluq, ekstremizm, separatçılıq kimi təhdidlərin qarşısının alınması üçün səylərin birləşdirilməsi kimi məsələlərin qeyd olunması 10 noyabr tarixli müqavilədə əksini tapan məsələlərin daha əsaslı, hüquqi nöqteyi nəzərdən yerinə yetirilməsi istiqamətində Azərbaycana əlavə avantaj və rıçaqlar qazandırır. Yəni, Azərbaycana separatistlər və yeni müharibə iddiası ilə çıxış edən, ya da proseslərin gedişatını ləngitməyə çalışaraq ölkələrin iradəsinə, xalqların təhlükəsizlik və rifahına əks bucaqda dayanan revanşist qüvvələrə qarşı Rusiyadan daha konkret addımlar gözləməyə əsas verir.

Bu sənədin hazırlanması yeni bir xəbər deyil, bunun hazırlıq prosesi uzun müddət idi ki, gedirdi. Bununla bağlı da dövlət başçımız həm 2020-ci il 10 oktyabr tarixində RBK-yə verdiyi müsahibədə, həm də Yeni il ilə əlaqədar olaraq xalqa müraciətində bunun anonsunu vermişdi ki, Rusiya ilə əlaqələrimiz keyfiyyətcə yeni mərhələyə qədəm qoyacaq. Sənədin digər siyasi proseslərlə əlaqəsi mövcud deyil.

Azərbaycan müstəqil, hər bir ölkə ilə qarşılıqlı faydalı əməkdaşlıq kontekstində münasibətlər qurur. Xarici siyasətimizin prioritet istiqamətlərində məhz bu amillər dəqiqliklə və aydınlıqla təsbit olunmuşdur. Azərbaycanın Rusiya ilə müttəfiqlik münasibətləri rəsmi Bakının öz maraqları üçün prioritet hesab etdiyi heç bir məsələdə prinsipial mövqe nümayiş etdirməsi yolunda əngəl deyil. Bundan əlavə Azərbaycan Qoşulmama Hərəkatına sədrlik edir, ölkə olaraq heç bir bloka qoşulmur və qonşuları ilə münasibətləri yüksələn xətt üzrə inkişaf etdirir. Azərbaycan hətta Ermənistanla da normallaşma prosesinin sürətlənməsində əməli və konkret addımlar atır.

43 maddədən ibarət olan və müxtəlif sahələri özündə ehtiva edən bəyannamə bundan öncə Azərbaycanla Rusiya arasında dostluq, əməkdaşlıq və qarşılıqlı təhlükəsizlik haqqında 3 iyul 1997-ci il tarixli Müqavilə, Rusiya Federasiyası və Azərbaycan Respublikası arasında dostluq və strateji tərəfdaşlıq haqqında 3 iyul 2008-ci il tarixli Bəyannamə və Rusiya ilə Azərbaycan prezidentlərinin 1 sentyabr 2018-ci il tarixli Birgə Bəyanatı fonunda mahiyyət etibarilə münasibətlərin möhkəmləndirilməsini, əməkdaşlığın daha da inkişaf etdirilməsini nəzərdə tutur. Qlobal siyasətdə baş verən hadisələrə nəzərə yetirdiyimiz zaman isə sənəd həm çağdaş dövrün çağırışlarını, reallıqlarını və reaksiya verilə biləcək proaktiv yanaşmanı özündə ehtiva edir.

Azərbaycanın Rusiya ilə ikitərəfli kontekstdə qurulan və davam edən münasibətləri yalnız Moskva ilə Bakının münasibətlərini tənzimləyir. Moskvanın digər ölkələrlə olan münasibətləri, ya da Azərbaycanın digər ölkələrlə olan münasibətləri ayrılıqda dəyərləndirilməlidir, bunun bir-biri ilə qarışdırılması nəinki siyasi, həm də realist nöqteyi nəzərdən yanlışdır. Azərbaycan hər bir dövlətin beynəlxalq hüquqla təsbit olumuş qaydada ərazi bütövlüyünü dəstəkləyir.

Eyni zamanda, Bəyannamədə Rusiya, Türkiyə və Azərbaycanın mövqeyi bir-birinə ziddi deyil, hər üç ölkənin mövqeyi üst-üstü düşür. Sözügedən Bəyannamə Rusiya ilə Azərbaycan arasında münasibətlərdə yeni səhifənin açılmasından xəbər verməklə yanaşı, qarşılıqlı məsuliyyət də yaradır. Bu da Azərbaycana çoxsaylı rıçaqlar qazandırır ki, həm siyasi iradəsini davam etdirsin, həm həll edilməmiş məsələlərin həllini sürətləndirsin ki, maksimum fayda ilə öz milli maraqlarını təmin edə bilsin".

# "Qarabağ"da Portuqaliyadakından 6 dəfə çox qazanır



***"Marsel"lə ilk matç bizim üçün vacib oyun oldu. "Marsel"ə hörmət etsək belə, futbolda mümkünsüz heç nə yoxdur. Cavab oyununu evdə azarkeşlərimizin önündə keçirəcəyik. Biz onları sevindirmək istəyirik. Biz özümüzə güvənirik".***

Qol.az xəbər verir ki, bu sözləri "Qarabağ"ın futbolçusu Riçard Almeyda Konfrans Liqasının pley-off mərhələsində "Marsel"lə cavab oyunu öncəsi Braziliya mətbuatına açıqlamasında deyib.

O bildirib ki, Azərbaycanda bu qədər vaxt keçirəcəyini heç təsəvvür etməyib: "Mən burada çox xoşbəxtəm. "Qarabağ"la Çempionlar Liqasını kəşf etdim. "Qarabağ"a qayıtdım, çünki bu klub mənim ailəm, məşqçi də atam kimidir. Bizə çox kömək edir. Bu klub mənə hörmət edir. Deyə bilərəm ki, 10 ildir xoşbəxt yaşamışam".

Almeyda deyib ki, Azərbaycana gəlməzdən əvvəl valideynlərinə "Qarabağ" haqqında danışanda onlar Azərbaycanın harada yerləşdiyini bilməyiblər: "Onlarla birgə internetdə axtarış apardıq. Valideynlərim əvvəlcə razılaşmadılar. Çünki həmin vaxt bu ölkənin Ermənistanla silahlı münaqişələrinin olduğunu gördük. Amma mənim üçün maliyyə baxımından maraqlı təklif idi. Ona görə də dedim ki, cəhd etməliyik və sonra hər şeyi görəcəyik".

Müsahibəni aparan jurnalist qeyd edir ki, Almeyda "Qarabağ"da Portuqaliyadakı maaşımdan 6 dəfə çox qazanır.

Millimizin üzvü Azərbaycanda dil baxımından çətinlik çəkmədiyini vurğulayıb: "Futbolun dili meydandakı oyundur. Milli komandadan təklif alanda atama dedim ki, Braziliya yığmasına düşmək şansım, demək olar ki, yoxdur. Və biz hamımız bu seçimi təsdiqlədik. Azərbaycan dilini yaxşı başa düşürəm, amma danışmaqda çətinlik çəkirəm".

# Ukrayna Premyer Liqası dayandırıldı

***Ukrayna Premyer Liqası ölkədə hərbi vəziyyətin tətbiqi ilə əlaqədar dayandırılıb.***

Bu barədə Ukrayna Premyer Liqasının rəsmi saytı məlumat yayıb.

Bu gün Ukrayna prezidenti Vladimir Zelenski ölkədə hərbi vəziyyətin tətbiq olunduğunu bəyan edib. Bundan sonra Ukrayna Futbol Federasiyasının İcraiyyə Komitəsi Premyer Liqanın dayandırılmasına verib.

Ukrayna çempionatının dayandırıldığı vaxtda Donetsk "Şaxtyor"u 18 oyunda 47 xalla turnir cədvəlinə başçılıq edir. İkinci yerdə Kiyev "Dinamo"su (45) qərarlaşıb. 40 xalla "Dnepr-1" isə üçüncüdür.

Xatırladaq ki, çempionat qış fasiləsindən sonra fevralın 25-də bərpa olunmalı idi.

# Bekhemin rekordunu qırdı

***"Mançester Yunayted"in futbolçusu Bruno Fernandeş klubun sabiq oyunçusu Devid Bekhemin rekordunu qırıb.***

Qol.az "Opta"ya istinadən xəbər verir ki, 27 yaşlı yarımmüdafiəçi buna ötən gecə Çempionlar Liqasının 1/8 final mərhələsində "Atletiko" ilə ilk matçda (1:1) nail olub. O, 80-ci dəqiqədə komanda yoldaşı Entoni Elanqanın vurduğu qolun ötürməsini verib. Beləliklə, Bruno Çempionlar Liqasında ardıcıl 6 oyunda qol ötürməsinə imza atıb və turnir tarixində klubun bunu bacaran ilk futbolçusu olub.



Bundan əvvəlki rekord "Mançester Yunayted"in sabiq oyunçusu Devid Bekhemə məxsus idi. O, 1998-ci ildə ardıcıl 5 görüşdə qol ötürməsi ilə yadda qalmışdı.

Qeyd edək ki, "Mançester Yunayted" və "Atletiko" arasında cavab oyunu martın 15-i İngiltərədə keçiriləcək.

# "Mançester Yunayted" yeganə şansından istifadə etdi" - Simeone



***"Bu matçda demək olar ki, hər şeyi yaxşı bacardıq. Əla təzyiqlə güclü xarakter və komanda futbolu nümayiş etdirdik. Mübarizəmiz və oynamağımız xoşuma gəldi. Oyundan razı qaldım. Qalib gələ bilmədik, amma qarşıdurmanın nəticəsi hələ də bəlli deyil. Görünür, üstünlük indi "Mançester Yunayted"in tərəfindədir, amma əslində heç nə dəyişməyib".***

Bu sözləri "Atletiko"nun baş məşqçisi Dieqo Simeone Çempionlar Liqasının 1/8 finalında evdə "Mançester Yunayted"lə bərabərə qaldıqları ilk oyundan (1:1) sonra keçirilən mətbuat konfransında deyib.

O, yaxşı oyuna davam etməli olduqlarını bildirib: "Mançester Yunayted" əllərində olan yeganə şansdan yararlandı. Qələbə üçün kifayət qədər çalışdıq. Komanda ruhumuz əla idi. Biz belə davam etməliyik. Hər şey irəlidədir".

# "Qarabağ" və "Dinamo"nun oyunu bu kanallarda



***Bu gün Avropa Liqası və Konfrans Liqasının pley-off mərhələsində keçiriləcək cavab oyunlarına Azərbaycan və Rusiya telekanalları vasitəsi ilə canlı yayımla baxmaq mümkün olacaq.***

Konfrans Liqasında "Qarabağ" - "Marsel" görüşü, millimizin üzvü Mahir Emrelinin çıxış etdiyi "Dinamo"un (Zaqreb) Avropa Liqasında "Sevilya" ilə cavab matçı və digər qarşılaşmalar aşağıda adları qeyd olunan kanallar vasitəsi ilə birbaşa nümayiş etdiriləcək:

**AZƏRBAYCAN**

"CBC Sport"
21:45. "Qarabağ" - "Marsel"
00:00. "Slaviya" (Praqa) - "Fənərbaxça"

**RUSİYA**

"Matç TV"
21:45. "Latsio" - "Portu"
00:00. "Betis"- "Zenit"
"Futbol 1"
21:45. "Olimpiakos" - "Atalanta"
00:00. "Napoli" - "Barselona"
"Futbol 2"
21:45. "Dinamo" (Zaqreb) - "Sevilya"
00:00. "Braqa" - "Şerif"
"Futbol 3"
21:45. "Real Sosyedad" - "Leyptsiq"
00:00. "Reyncers" - "Borussiya" (Dortmund)

# "Madridə qayıtmaq həmişə xoşdur" - Ronaldo

***"Mançester Yunayted"in hücumçusu Kriştiano Ronaldo Çempionlar Liqasının 1/8 final mərhələsinin "Atletiko" ilə səfər oyunundan (1:1) sonra "İnstaqram" hesabından paylaşım edib.***

O, Madrid səfəri ilə bağlı yazıb: "Dünyada "ev" adlandırmağı öyrəndiyim bir neçə şəhərdən biri olan Madridə qayıtmaq həmişə xoşdur. Böyük emosiyalar, oyunçular və oyun... Bu Çempionlar Liqasıdır! Bütün klub yarışlarının anası!

İndi bizim stadionumuzda bu matçın taleyini həll etmək imkanımız var. Hər kəsə göstərək ki, "Old Trafford" niyə həmişə "Xəyallar Teatrı" olub və olacaq.

Son olaraq, möhtəşəm azarkeşlərimizə təşəkkür edirəm! Sizin varlığınız bizi daha da gücləndirir və biz birlikdə irəliyə gedəcəyik!".